QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 048 (6248) 16 mart 2021-ci il Qiyməti 40 qəpik “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar



Bax 2

### Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi ”Instagram” səhifəsində Füzuli və Xocavənd rayonlarına səfərlə bağlı videogörüntülər paylaşıb



### Ceyhun Bayramov: Azərbaycan bütün hərbi əsirləri Ermənistana qaytarıb

Azərbaycan-İsveç münasibətləri bir sıra sahələrdə uğurla inkişaf etməkdədir. Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər gündəmdədir. Qarşılıqlı investisiya qoyuluşuna xüsusi diqqət...



Bax 3

### “Jewish Press” informasiya agentliyi Ermənistanda hökm sürən faşizm və antisemitizm barədə məqalə yayıb

ABŞ-da fəaliyyət göstərən nüfuzlu “Jewish Press” informasiya agentliyi israilli siyasi analitik Rahel Avraamın “Ermənistanda baş verən son dəyişikliklərə baxmayaraq, ölkədə faşizm və antisemitizm hökm sürür” sərlövhəli məqaləsini yayıb. Müəllif yazır ki, martın əvvəlində İsrailin “HaYom” qəzetində...


Despite Recent Changes in Armenia, Fascism and Anti-Semitism Remain a Concern

Bax 3

### Ermənilər Qafandakı mövqelərini tərk edirlər

*“Görün əsgərlərimiz Sünik (Zəngəzur) sərhədlərini hansı vəziyyətdə qoruyurlar! Hakimiyyət hansı, haraya baxır? Nəyə görə onlar bu cür şəraitdə postları qorumalıdırlar? Bu cür soyuqda çadırlarda yaşayacaqlar? Hansı ki, düşmən hər yerdə möhkəmlənir! Kimlər ki, hakimiyyətin...*



Bax 13

### Azərbaycan Ordusu əməliyyat-taktiki təlimlərinə başlayıb

Qoşunların 2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusu əməliyyat-taktiki təlimlərinə başlayıb. SİA Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, müdafiə nazirinin rəhbərliyi ilə keçirilən təlimə 10.000 nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək hərbi...



Bax 4

### Ara Saqatelyan: “Dünyanın gözündə “papuasa” çevrilirik”



Bax 7

### Salam Ağdam, biz bu dəfə həmişəlik gəldik!



Bax 8

### Futbolun yeni kralı: Ronaldo Peleni keçdi!



Bax 16

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar







**Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar. Dövlət başçısı qeyd edib ki, bu ərazilərdəki dağıntılar müharibədən sonra baş verib.**

Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntı olmamışdır, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb. 30 il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı daş üstə qoymayıb. Onların bütün təbliğatı yalandır, bütün tarixi saxtadır.

Dövlət başçısı qeyd edib ki, azad edilmiş torpaqların bərpası başlamışdır. Dövlətimizin başçısı səfər çərçivəsində Edili,Tuğ, Düdükçü kəndlərində olub, habelə Füzuli-Hadrut avtomobil yolunun təməlini qoyub. Səfərdən geniş reportaj martın 16-da təqdim ediləcək.

# “İndi münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq”

*Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Prezident İlham Əliyevlə ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindenin təkbətək görüşü oldu. Sonra görüş geniş tərkibdə davam etdirildi.**

Azərbaycan Prezidenti İlham Əliyev:

- Xoş gəlmisiniz, xanım nazir. Sizi görməyə çox şadam. Bizim təkbətək danışmaq imkanımız oldu, indi isə nümayəndə heyətlərinin iştirakı ilə görüşürük. Sizin səfərinizə böyük əhəmiyyət veririk. ATƏT Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllinə birbaşa cəlb olunmuş təşkilatdır. Beləliklə, indi münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Bu gün sizinlə gələcək işlərin necə qurulması ilə bağlı fikirlərimizi müzakirə etdik. Düşünürəm ki, müharibədən sonra ötən 4 ay artıq hər iki tərəfin səhifəni bağlamaq və diqqəti gələcəyə yönəltmək iradəsini nümayiş etdirir. Bu, çox mühümdür.

Bizə gəlincə, biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur. Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir. Danışıqların müxtəlif səviyyələrdə artıq bir neçə mərhələsi olub. Düşünürəm ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu, bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik. Bilirəm ki, bu günlərdə çox məşğulsunuz, çox ölkəyə səfər edirsiniz. Mən sizi Azərbaycanda görməyə çox şadam. Ümidvaram ki, ölkəmizə səfəriniz çox məhsuldar olacaq. Bir daha xoş gəlmisiniz.





ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde:

- Çox sağ olun. Məni qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bakıya belə uzun müddətdən sonra qayıtmaq sevindirici haldır. Təəssüf edirəm ki, payızda gələ bilməmişəm. Çünki hökumətimiz həmin vaxt uçuşların həyata keçirilməsinin təhlükəli olduğunu hesab etmişdir və bu səbəbdən mən gələ bilməmişdim. Lakin indi mən buradayam. Bildiyiniz kimi, ATƏT-in sədri olaraq bizim əsas prioritetimiz Avropada təhlükəsizlik sistemini müdafiə etməkdir və təhlükəsizliyi demokratiyaya, insan hüquqlarına və qanunun aliliyinə bağlayan hərtərəfli təhlükəsizlik konsepsiyasına dəstək olmaqdır. Əlbəttə ki, biz ATƏT ərazisində münaqişənin həllinə töhfə vermək üçün nə edə biləcəklərimizi nəzərdən keçirəcəyik. Odur ki, bu kontekstdə, əlbəttə, beynəlxalq hüquq, beynəlxalq insan hüquqları, humanitar qanun, qadınlar, sülh və təhlükəsizlik bizim üçün prioritet məsələlərdir. Hesab edirəm ki, bu məsələlər üzərində birlikdə çalışmaq mümkündür.

# Ceyhun Bayramov: Azərbaycan bütün hərbi əsirləri Ermənistana qaytarıb

**Azərbaycan-İsveç münasibətləri bir sıra sahələrdə uğurla inkişaf etməkdədir. Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər gündəmdədir. Qarşılıqlı investisiya qoyuluşuna xüsusi diqqət ayrılmalıdır.**



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov martın 15-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Nazir qeyd edib ki, Azərbaycan son dövrlərdə alternativ və bərpaolunan enerji mənbələrinin inkişafına xüsusi əhəmiyyət verir. Bu baxımdan İsveç bizim üçün maraqlı ölkədir.

Nazir Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan ATƏT-lə əməkdaşlığı vacib hesab edir. Ermənistanın növbəti təxribatına cavab olaraq ölkəmizin həyata keçirdiyi uğurlu əməliyyatla torpaqlarımız işğaldan azad edildi. Bu isə bölgədə yeni əməkdaşlıqlar üçün imkanlar yaradır. Azərbaycan dövlətlərarası münasibətlərin inkişafında hər zaman maraqlıdır. Nazir daha sonra qeyd edib ki, Azərbaycan üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, bütün hərbi əsirləri Ermənistana təhvil verib. Hətta hərbi əməliyyatlar zamanı da Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə əsirlərin qarşı tərəfə verilməsi üçün müvafiq addımlar atılıb. “Azərbaycan dövlətinin bu məsələdə mövqeyi çox açıq və aydındır. Biz üçtərəfli Bəyanata uyğun olaraq, hərbi əməliyyatlar zamanı və ondan əvvəl tutulmuş bütün hərbi əsirləri Ermənistan tərəfinə qaytarmışıq”, - deyə nazir qeyd edib. “İsveç Azərbaycan ilə münasibətlərə xüsusi əhəmiyyət verir. Qarşılıqlı əlaqələrin inkişafı bir çox sahələrdə uğura rəvac verir.”

Bu sözləri isə İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Linde Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə martın 15-də baş tutan görüşdən sonra keçirilən mətbuat konfransında deyib. Ölkəmizə səfərindən məmnunluğunu bildirən Ann Linde Azərbaycan ilə İsveç arasında siyasi, iqtisadi-ticarət və mədəniyyət sahələrində əməkdaşlıq üçün imkanların olduğunu söyləyib.O qeyd edib ki, 44 günlük müharibədən sonra bölgədə yaranan reallıqlar yeni əməkdaşlıq əlaqələrinin formalaşmasına imkan verir.

# “Jewish Press” informasiya agentliyi Ermənistanda hökm sürən faşizm və antisemitizm barədə məqalə yayıb

ABŞ-da fəaliyyət göstərən nüfuzlu “Jewish Press” informasiya agentliyi israilli siyasi analitik Rahel Avraamın “Ermənistanda baş verən son dəyişikliklərə baxmayaraq, ölkədə faşizm və antisemitizm hökm sürür” sərlövhəli məqaləsini yayıb. Müəllif yazır ki, martın əvvəlində İsrailin “HaYom” qəzetində dərc olunmuş bir məqaləsində amerikalı jurnalist Patrik Lankasterin Ermənistanın paytaxtı İrəvan şəhərinin Respublika meydanında millətçi bir təşkilatı təmsil edən erməni ilə ünsiyyətdə olması və həmin erməninin öz antisemitizm fikirlərini onunla bölüşməsi barədə məlumat verib. Ermənistan vətəndaşı sosial şəbəkələrdə paylaşılmış həmin səs yazısında Svastikanın Hind-Avropa ari xalqlarının simvolu olduğunu, Hitlerin yəhudiləri təhrikçiliklə məşğul olduqları və təhlükəli millət hesab etdiyi üçün öldürdüyünü bildirib.




Müəllif ABŞ-ın Antidefamasiya Liqasının 2014-cü ildə keçirdiyi sorğuya istinad edərək, Ermənistan əhalisinin 90 faizinin Holokost faciəsinin baş verdiyini təsdiqlədiyini, ancaq ermənilərin 58 faizində antisemitizm meyillərinin və yəhudilər barədə mənfi rəyin mövcud olduğunu bildirib. İsrailli ekspert, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri Arye Qut “Jewish Press” informasiya agentliyinə müsahibəsində İsrailin Diaspor Məsələləri Nazirliyinin son antisemitizm hesabatına əsasən İkinci Qarabağ müharibəsindən bəri Ermənistanda antisemitizm meyillərinin artmasının müşahidə olunduğunu deyib. “Monoetnik dövlət olan Ermənistanda antisemitizm və millətçilik dalğasının getdikcə artdığı müşahidə olunur. Son günlərdə İrəvandakı Holokost qurbanlarının xatirəsinə ucaldılmış memoriala qarşı vandalizm aktı törədilib, İsrail ilə Ermənistan arasındakı dostluq münasibətlərinin şərəfinə ucaldılmış digər bir abidə isə təhqir olunub”, - deyə Arye Qut bildirib. Ekspert antisemitizmin və neonasizmin populyarlaşdırılmasının Ermənistanın dövlət siyasətinin ayrılmaz hissəsinə çevrildiyini və faşist ideologiyasının “njdeizm” adı altında Ermənistanın təhsil müəssisələrinin proqramına daxil edildiyini vurğulayıb. Arye Qut onu da bildirib ki, 1992-ci il fevralın 26-da erməni silahlı qüvvələrinin Xocalıda törətdikləri vəhşiliklər nəticəsində minə yaxın Azərbaycan vətəndaşı öldürülüb, qadınlar, uşaqlar və qocalar ağlasığmaz işgəncələrə, təhqirlərə və həqarətə məruz qalıblar. Ekspert, həmçinin qeyd edir ki, Ermənistan İsrailin Cənubi Qafqazdakı strateji tərəfdaşının məhz Azərbaycan olduğunu qəbul edə bilmir.

# Ermənistanda qələbə xəyalı ilə məst idilər, Azərbaycanda isə Qarabağa qayıtmaq milli ideyaya çevrilmişdi

## Rusiyanın “Arqumentı i faktı” qəzeti İrəvandan reportaj dərc edib

**Tam hərc-mərclik idi. Mən vuruşmağa macal tapmadım. Cəbhəyə gəldim, iki gündən sonra postda oturub konyak içirdik. Birdən yüngül bir cırıltı səsi eşidildi və özümə gələndə artıq hospitalda idim - məni Türkiyə istehsalı olan pilotsuz uçuş aparatı ilə vurmuşdular. İki dostum tikə-tikə olmuşdu, mən isə möcüzə nəticəsində sağ qalmışam.**

AZƏRTAC xəbər verir ki, Ermənistan ordusunun könüllüsü, pilotsuz uçuş aparatı ilə vurulduqdan sonra iki barmağını itirmiş Armen Mnatsakanyan İkinci Qarabağ müharibəsində keçdiyi döyüş yolunu Rusiyada çıxan “Arqumentı i faktı” qəzetinin şərhçisi Georgi Zotova belə təsvir edib.

Ermənistana ezamiyyətdən qayıdandan sonra G.Zotov yazır ki, İrəvanda tez-tez gözə dəyən avtomobillərin arxa şüşəsinə hərbi geyimli bir gəncin böyük ölçülü ağ-qara fotoşəkli yapışdırılıb. Bu, Dağlıq Qarabağ uğrunda Azərbaycanla 44 günlük müharibədə həlak olmuş bir ata, qardaş, ər və ya oğuldur. Rəsmi məlumata görə, həmin müharibədə öldürülmüş erməni əsgərlərinin sayı təqribən 4000 nəfər, qeyri-rəsmi məlumata görə isə 7000 nəfərə yaxındır. Jurnalist hesab edir ki, əhalisinin sayı 3 milyondan az olan bir ölkə üçün bu, dəhşətli itki deməkdir.

Məqalə müəllifinin fikrincə, sonuncu Qarabağ müharibəsi inandırıcı şəkildə göstərdi ki, silahlı münaqişədə qalib gəlmək üçün təkcə cəsurluq kifayət deyil. Bunun üçün düşmənin imkanlarını obyektiv qiymətləndirmək, çox ciddi intizam və müasir texniki təchizat lazımdır. Yüzlərlə tankı və gənc əsgəri “Ura!” sədaları altında meydana çıxarmaq sisteminin vaxtı keçib.

Ermənistan ordusunun keçmiş kapitanı Suren Ter-Qukasyan rusiyalı jurnalistlə söhbətində köksünü ötürərək deyib: “Azərbaycan 1994-cü ildən bəri ardıcıl olaraq silahlanırdı. Təkcə son 9 ildə Azərbaycan müdafiə məqsədləri üçün 24 milyard dollar sərf edib, ölkənin hərbi xərcləri büdcənin 11 faizinə bərabər olub. Azərbaycan Ordusu Rusiyadan ən yeni helikopterlər, zirehli transportyorlar, “Kornet-E” tank əleyhinə komplekslər, “C-300” hava hücumundan müdafiə sistemləri, Türkiyə və İsraildən çox böyük yüksəklikdən zərbə endirməyə imkan verən pilotsuz uçuş aparatları alıb. Bu ordu Türkiyənin, İsrailin və Amerikanın ən yaxşı hərbi təlimatçılarının rəhbərliyi ilə məşq keçib. Ermənistanın nə nefti var, nə də bu qədər pulu. Ona görə də Ermənistan ordusu üçün cəmi 4 milyard dollar ayrılıb.




Əlbəttə, onlar da müxtəlif silahlar, az miqdarda “İsgəndər” raketləri, Serbiya istehsalı olan minaatanlar alıblar. Biz axmaqlıq etdik. Ermənistan cəmiyyətində əsassız lovğalıq, təkəbbür hissləri üstünlük təşkil edirdi. Əvvəlki müharibədə Azərbaycan döyüşçülərini sürətlə darmadağın etməyimiz, onların qaçmağa məcbur olması bizdə eyforiya yaratmışdı. Onları məsxərəyə qoyaraq deyirdilər: “Məgər azərbaycanlılar vuruşmağı bacarır? İrəli gəlsələr, biz Bakıya qədər gedəcəyik!”. Sözün qısası, bu məsxərələr bizə çox baha başa gəldi”.

### “Tanklar faydasız idi”

Georgi Zotov yazır: “Qarabağda cəbhə xəttində qarşıdurma 26 il davam edib. Hər gün atışmalar olur, snayperlərin “duelləri” gedirdi. Yəni arxayınlaşmaq üçün əsas yox idi. Lakin məlum oldu ki, ermənilər azərbaycanlıların genişmiqyaslı hücumuna əsla hazırlaşmayıblar. Onlar əvvəlki uğurların “xumarını” yaşayırdılar, güman edirdilər ki, düşmənin öhdəsindən asanlıqla gələcəklər. Azərbaycanda isə Qarabağa qayıtmaq məsələsi milli ideyaya çevrilmişdi. Mən Bakıda olarkən bunu şəxsən yəqin etdim. Azərbaycanlılar hələ uşaq yaşlarından yeni döyüşlər barədə düşünür və bu yolda qurbanlar verməyə mənəvi cəhətdən hazır idilər. Ermənilər illər boyu Azərbaycanın bahalı, müasir silahlar almasını müşahidə edir və inanırdılar ki, Azərbaycan erməniləri yalnız qorxutmaq istəyir. Ermənilər düşmən tərəfi alçaldır, onu lağa qoyub gülürdülər: “Onlar qorxaqdır, cəsarət etməzlər”.

Ötən il oktyabrın əvvəlində Qarabağ uğrunda könüllü döyüşmək üçün gəlmiş Levon Melkonyan xatırlayır ki, azərbaycanlılar müharibənin ilk günündən havada üstünlüyə malik idilər. Jurnalist yazır: “İrəvanın mərkəzində kafedə Levonla söhbət edirəm. O, ötən il oktyabrın əvvəlində Qarabağ uğrunda könüllü döyüşmək üçün gəlmişdi. Biz onunla ingilis və ərəb dillərində söhbət edirik. Levon rus dilini bilmir, çünki Livanda, Beyrutun ermənilər yaşayan məhəlləsində doğulub. O deyir: “Tanklar və zirehli maşınlar faydasız idi: Pilotsuz uçuş aparatları vasitəsilə onları yandırırdılar. Komandirlərin müşavirə keçirmək üçün toplaşdığı sığınacaqlar və binalar raketlərlə dağıdılırdı. Əlavə döyüş sursatı gətirmək mümkün deyildi: PUA-lar yük maşınlarını məhv edirdi. Mən bir ay sərhəddə toplanış məntəqəsində qaldım, bizi heç yerə göndərmirdilər, çünki hər bir maşın yolda havadan zərbə təhlükəsinə məruz qalırdı”.

### “Mən özüm səhərdən yaxşıca içirdim”

Məqalə müəllifi yazır ki, İrəvanda hərbçilərin çoxu ilə söhbətdə bu fikri eşidirdi: “Ermənistan on minlərlə əsgər toplamışdı, amma sonra nə etmək lazım olduğunu bilmirdi, çünki qoşunları cəbhəyə çatdırmaq fürsəti əldən verilmişdi. Daha bir məqamı qeyd etməliyəm - döyüş əməliyyatları zonasında intizam məsələsi. Bu məqaləni lap əvvəlində söhbət etdiyim könüllü heç nəyi gizlətmir: o, ön xətdə postda əyləşib konyak içir. Aydındır ki, müharibə vaxtı bəzən elə vəziyyət yaranır ki, alkoqollu içkisiz ötüşmək olmur (mən özüm “cəbhə” ezamiyyətlərində onlarca dəfə olmuşam), Böyük Vətən müharibəsini və o dövr üçün məşhur “narkom 100 qramı” məsələsini yada salaq. Lakin “cəsarət” üçün içmək müntəzəm hal alanda sözdə cəsarət həddən artıq olsa da, ayıq başla mühakimə yürütmək və vəziyyətə çevik reaksiya vermək qabiliyyəti sıfra enir. Separatist dəstələrin əsgəri Araik Xaçikyan etiraf edir: “Bizim döyüş mövqelərində hətta zabitlər də artıqlaması ilə içirdilər. Axı qorxuludur. Mən özüm səhərdən yaxşıca içirdim, yoxsa pilotsuz uçuş aparatlarının partlayış səsini eşidəndə adamın əsəbləri tab gətirməz. Hətta belə şayiələr gəzirdi ki, bir nəfər yüksək vəzifəli erməni siyasətçi sərxoş vəziyyətdə generallara zəng vurur və onlardan dərhal bu və ya digər kəndə hücuma keçmələrini tələb edirmiş”. Xaçikyanın dediyinə görə, komandirlər çox vaxt rəhbərliyin sərəncamına əsla əhəmiyyət vermir və özləri bildikləri kimi hərəkət edirdilər. Bir sözlə, özbaşınalıq baş alıb gedirdi”.

### “Hər gün dəfn mərasimləri olur”

Müharibədə həlak olanların dəfn mərasimləri hələ də davam edir. G.Zotov yazır: “Yerevanda hər tində gül satılır, amma bu, yenicə ötüb keçmiş 8 mart bayramı ilə bağlı deyil. Satıcı qadın Qayane sakit səslə deyir: “Qızılgüllər, qərənfillər yaman bahalaşıb. Əlbəttə, oktyabr-noyabr aylarında hər gün onlarca cavanı dəfn edirdik... Sonra anma mərasimləri keçirilir, bununla əlaqədar məzarların üstünə gül düzülməlidir... Hələ də cəsədlər tapılır, onları dəfn edirlər... Min beş yüz nəfər itkin düşüb... Mən bir şeyi başa düşmürəm, “İsgəndər” silahlarından nə üçün istifadə etməyiblər?”

Bu taktiki-raket kompleksləri Ermənistana çoxdan göndərilmişdi, lakin müharibə günlərində həmin silahları tətbiq etmədilər. Azərbaycanın Gəncə şəhərinə yalnız köhnə sovet raketləri atdılar. Ermənilər oradakı hərbi bazanı vurmağa çalışırdılar, lakin nəticədə yaşayış məhəllələri dağıdıldı, nəticədə ermənilər dinc sakinlərin qatilləri kimi tanındı”.

Müəllifin fikrincə, Qarabağ uğrunda müharibə Rusiyaya da yaxşı dərs olub. G.Zotov yazır: “Bəli, indi 90-cı illər deyil, Rusiya ordusunda intizam sarıdan hər şey qaydasındadır, əsgərlər də cəsurdurlar. Lakin təəssüf ki, yuxarıda dediyim kimi, müasir şəraitdə təkcə cəsurluq hesabına döyüşdə qalib gəlmək olmaz. Elektron üsullarla idarə edilən, Türkiyə istehsalı olan ən yeni pilotsuz uçuş aparatlarından uğurla istifadə edilməsi əyani şəkildə göstərdi ki, indiki dövrdə müharibə metodları çox sürətlə dəyişir. Ümidvaram ki, tezliklə Rusiyada Türkiyə istehsalı olan dronlardan keyfiyyətcə geri qalmayan PUA-lar istehsalı başlanacaq. Bizim heç də bütün qonşularla münasibətlərimiz yaxşı olmadığı üçün sürprizlərə hazır olmaq lazımdır. Lovğalıq isə heç lazım deyil. Bu, Ermənistana kömək etmədi”.

# İşğaldan azad olunan torpaqlarımızda yeni həyat canlanacaq

**"Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey - şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib.**



Dövlət başçısı ATƏT-in Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllinə birbaşa cəlb olunmuş təşkilat olduğunu bildirib. Bildiyimiz kimi, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsi ATƏT çərçivəsində başlamışdır. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarların əsaslanırdı. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Azərbaycan ərazilərinin işğalına cavab olaraq qəbul olunmuş qətnamələri Azərbaycan Respublikası və regiondakı digər dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına hörmət olunmasını bir daha təsdiqləmiş oldu. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi, qaçqın və köçkünlərin geri dönmələrini təmin etməklə, regionda iqtisadi, nəqliyyat və enerji əlaqələrinin bərpasına çağırdı. Bu qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atdı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı danışıqlar beynəlxalq hüquq və normalar və bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında davam etdirildi. Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. Müzəffər Ali Baş Komandanın əmrinə əsasən, Ordumuz döyüş meydanında müharibə qanunlarına əməl etməklə, hərb tarixinə yeni səhifə yazdı.

Artıq Qarabağ münaqişəsi həll olunub və Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Prezident İlham Əliyevin vurğuladığı kimi, münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq: "Düşünürəm ki, müharibədən sonra ötən 4 ay artıq hər iki tərəfin səhifəni bağlamaq və diqqəti gələcəyə yönəltmək iradəsini nümayiş etdirir. Bu, çox mühümdür".

Bu gün işğaldan azad edilmiş ərazilərdə aparılacaq bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Azərbaycanın işğaldan azad olunan torpaqlarında yeni həyat canlanacaq. Ermənilərin xarabalığa çevirdiyi məkanlar abadlaşacaq, çiçəklənəcək. Bu məkanların infrastrukturu yenidən qurulacaq, müasirləşəcək, yeni yollar çəkiləcəkdir. 27 il müddətində işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri dağıdılmışdır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa edəcək, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşacaqdır. Yaşayış üçün, ilk növbədə, infrastruktur layihələrinin icra edilməsi nəzərdə tutulur. Təhlükəsiz yerlərdə layihələrin icrasına artıq başlanılıb. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər davam etdirilir. Sosial obyektlərin tikilməsi, yaşayış üçün şərait yaradılması, evlərin inşası işləri ardıcıl olaraq həyata keçiriləcək.

Mürahibə dövründə bu ərazilərə çoxlu miqdarda atılan mərmilər, basdırılmış minalar təbii ki, ekoloji mühitin zəhərlənməsinə, çirklənməsinə birbaşa səbəb olan amillərdir. Ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsi prosesi davam edir. Qeyd olunan bütün bu proseslər yekunlaşdıqca bərpa işləri daha geniş vüsət alacaq.

Dövlət başçısı Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması məsələsinə də diqqəti çəkib. Kommunikasiyaların açılması tək Azərbaycana yox, həm də region ölkələrinə lazımdır. "Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq", deyən dövlət başçısı bunun noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsi olduğunu diqqətə çatdırıb: "Danışıqların müxtəlif səviyyələrdə artıq bir neçə mərhələsi olub. Düşünürəm ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu, bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq".

***Nəzakət ƏLƏDDİNQIZI***

## Azərbaycan Ordusu əməliyyat-taktiki təlimlərinə başlayıb

Qoşunların 2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusu əməliyyat-taktiki təlimlərinə başlayıb. SİA Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, müdafiə nazirinin rəhbərliyi ilə keçirilən təlimə 10.000 nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunub.



Dağlıq-meşə və çətin relyefli ərazilərdə keçirilən təlimlərdə Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla əsas diqqət qoşunların idarəolunması, döyüşə hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, o cümlədən ümumqoşun birlikləri, Raket və Artilleriya Qoşunları, aviasiya, Xüsusi Təyinatlı Qüvvələr arasında döyüş uzlaşması və qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinə yönəldilib. Martın 18-dək davam edəcək təlimlərdə qoşunlar terrorçu dəstələr (qruplar), həmçinin qanunsuz silahlı qruplaşmalar ilə mübarizə və anti-terror əməliyyatları üzrə tapşırıqları icra edəcək.

## Macarıstan XİN rəhbəri: **Budapeşt Azərbaycanın suverenliyini və beynəlxalq birlik tərəfindən tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü dəstəkləyir**

Macarıstanın populyar ingilisdilli nəşri macar diplomatiyasının başçısı Peter Siyartonun Azərbaycana səfərinin yekunları barədə material yayıb. AZƏRTAC xəbər verir ki, materialda Qarabağ regionunda aparılan bərpa işlərində macar şirkətlərinin iştirakını dəstəkləyən Macarıstan hökumətinin mövqeyindən söhbət açılır. Nazir Peter Siyarto bunu azərbaycanlı həmkarı Ceyhun Bayramovla danışıqlardan dərhal sonra bəyan edib. Siyarto bildirib ki, Bakıda onun danışıqları sazişə hazırlıq çərçivəsində keçirilib. Bu sazişə müvafiq olaraq, Macarıstan Azərbaycandan təbii qaz almaq niyyətindədir. Macarıstan hökumətinin mövqeyini ifadə edən Siyarto bildirib ki, Budapeşt Azərbaycanın suverenliyini və beynəlxalq birlik tərəfindən tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü dəstəkləyir.




"Biz daim bu mövqedən çıxış etmişik və bəzilərindən fərqli olaraq, bu barədə həmişə açıq danışırıq", - deyə əlavə edən Siyarto ümidvar olduğunu bildirib ki, Azərbaycanda tezliklə sülh və əmin-amanlıq dövrü başlayacaq, əvvəllər öz doğma ocaqlarını məcburən tərk edən insanların oraya qayıtmasından ötrü regionun bərpası daha tez və uğurla başa çatacaq.

Siyartonun Azərbaycana səfəri zamanı onu Macarıstanın avtomobil, dəmir yolu və ümumi inşaat, kənd təsərrüfatı və kənd təsərrüfatının infrastrukturu, su resurslarının idarə edilməsi, elektrik avadanlıqlarının quraşdırılması sahəsində iş təcrübəsinə malik olan 6 şirkətinin rəhbərləri müşayiət ediblər. Bu şirkətlər Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası üzrə layihələrdə nəzərəçarpan rol oynaya bilərlər.

Materialda qeyd edilir ki, Macarıstanın "Eksimbank"ı belə müəssisələrin inkişafı üçün 100 milyon dollar həcmində kredit xətti ayırmağa hazırdır.

Siyarto bəyan edib ki, may ayından Avropa İttifaqının Nazirlər Komitəsinin sədri qismində fəaliyyət göstərəcək Macarıstan regionda uzunmüddətli sülhün bərqərar olmasına xüsusi diqqət ayıracaq və məcburi köçkünlərin doğma evlərinə qayıtmasına kömək göstərəcək. Siyarto Ceyhun Bayramovu Avropaya qaz tədarükü barədə Türkmənistan ilə sazişin bağlanması münasibətilə təbrik edib. O deyib: "Bu, Macarıstan üçün irəliyə böyük addımdır, çünki biz Cənub Qaz Dəhlizi vasitəsilə təkcə Azərbaycandan deyil, eləcə də Türkmənistandan qaz ala biləcəyik".

Materialda, həmçinin bildirilir ki, Siyarto ADA Universitetinin rektoru Hafiz Paşayevlə Niyyət Protokolu imzalayıb. Sənəd ADA ilə Macarıstan Diplomatik Akademiyası arasında təhsil sahəsində əməkdaşlığa istiqamətlənib. Onun sözlərinə görə, Macarıstan universitetlərinin 200 təqaüdünə sahib olmağı arzulayan azərbaycanlı tələbələr çoxdur.

## Ceyhun Bayramov ilə Filip Riker arasında telefon danışığı baş tutub

***Martın 15-də xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ-ın Avropa və Avrasiya məsələləri üzrə Dövlət Katibinin köməkçisi vəzifəsini icra edən Filip Riker arasında telefon danışığı baş tutub.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər bölgədə hazırda mövcud olan vəziyyət, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Tərəflər, həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif məsələləri və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.





# Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik

## Dövlətimizin başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayında bir daha tarixi paralellər fonunda təhlil apararaq bu fikri xüsusi qeyd etmişdir ki, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz

**Daim yeniləşməyə, təkmilləşməyə diqqət göstərən və bunu irəli sürdüyü təşəbbüsləri, icra etdiyi layihələri ilə təsdiqləyən Yeni Azərbaycan Partiyasının bu günlərdə keçirilən VII qurultayında dövrün, zamanın tələblərinə uyğun təkmilləşmənin yol açdığı uğurlardan geniş bəhs edən dövlətimizin başçısı İlham Əliyev bu çağırışı etdi ki, biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik.**

Bu fakt inkaredilməzdir ki, 2018-ci ilin prezident seçkilərindən sonra başlanan islahatlar Azərbaycanda keyfiyyətcə yeni mərhələnin əsasını qoyub. Dövlətimizin başçısı İlham Əliyev daim bu fikri önə çəkir ki, dünyanın qabaqcıl ölkələrinin praktikasına nəzər salsaq görərik ki, onu inkişaf etdirən bilikdir, elmdir, yeni texnologiyalardır. Məhz müasir dünyagörüşə, savada, biliyə malik gənclərin idarəçilik sistemində irəli çəkilməsi bu hədəflərə geniş yol açır. 2019-cu ildə Yeni Azərbaycan Partiyasının islahatların qanunverici orqanda da öz əksini tapması üçün parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsünə uyğun olaraq aparılan prosedur qaydaları əsasında cənab İlham Əliyevin Sərəncamı ilə növbədənkənar parlament seçkilərinin keçirildi və yeni parlament formalaşdı. Yeni formalaşmış qanunverici orqanda təmsil olunan deputatların xeyli hissəsini gənclər təşkil edir. Eyni fikirləri bu günlərdə partiyanın VII qurultayında qəbul olunan qərarlarla da bağlı deyə bilərik. Belə ki, aparılan struktur islahatlarına, yeni tərkib diqqət yetirsək gəncləşmə siyasətini daha aydın şəkildə görə bilərik. Bununla yanaşı, yaşlı nəslin təcrübəsindən bəhrələnmək də əsas çağırışlardandır. Cənab İlham Əliyev daim bildirir ki, təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. İnnovasiyalara meyilli olan gənclərimiz müasir dövrün tələblərinə daha tez uyğunlaşmaq və yüksək səviyyədə cavablandırmaq imkanındadırlar. Təbii ki, dövr, zaman dəyişir, qarşıya yeni vəzifələr qoyulur. Bu vəzifələr öz növbəsində birliyimizi, həmrəyliyimizi daha da daha möhkəmləndirməyi, ümumi mövqe ortaya qoymağı bir tələbə çevirir.

Bir mühüm məqamı da unutmayaq ki, cəmiyyəti idarə edən qanunlardır. Onların təkmilliyi, dövrün çağırışlarını yüksək səviyyədə cavablandırılması inkişafa geniş imkanlar yaradır. Ən əsası hər kəs qanun qarşısında eyni məsuliyyəti daşıdığını dərk etməklə, həm qanunverici orqanın işinin yeniləşməsinə, müasirləşməsinə, günümüz üçün vacib qanunları qəbul etməsinə, həm də bu qanunların icrasına, tələblərinə əməl edilməsinə öz töhfəsini verə bilər.

Qeyd etdiyimiz kimi, yeni dövrün, zamanın tələblərinə uyğun olaraq qarşıya yeni vəzifələr qoyulur ki, onların da icrası təkmil Dövlət proqramlarının qəbulunu, onların icra mexanizminin müəyyənləşdirilməsini tələb edir. Son 17 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin müəyyənləşdirdiyi yeni iqtisadi və sosial inkişaf modeli də bu məqamları özündə ehtiva edir. Son illərin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, təkmil sosial xidmətin əhatə dairəsinin genişləndirilməsi, əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, ictimai həyatın bütün sahələrində şəffaflığın təmin edilməsi fonunda ölkənin hərtərəfli inkişafını təmin etməkdir. Şəffaflıq dayanıqlı inkişafın əsas amillərindən biri kimi bütün dövrlərdə öz aktuallığını qoruyur ki, bu da öz növbəsində nəzarətin gücləndirilməsini gündəmə gətirir.

Müasir dövrün informasiya-kommunikasiya texnologiyaları əsri olduğunu nəzərə alsaq, nəzarət funksiyasının yerinə yetirilməsinin o qədər də çətin olmadığını söyləyə bilərik. Əsas olan hər kəsin öz missiyasını layiqincə yerinə yetirməsi, dövlət maraqlarının qorunması, insan amilinə dəyərdən irəli gələn addımların atılması, vətəndaş-məmur münasibətlərinin inkişaf etdirilməsi, imzalanan Fərman və sərəncamların, təsdiqlənən Dövlət proqramlarının, inkişaf strategiyalarının, qəbul olunan qanunların icrasına nəzarətin gücləndirilməsidir. Ölkə Prezidenti İlham Əliyevin bu "Dövlət Nəzarəti İnformasiya Sistemi"nin yaradılması haqqında Fərmanına əsasən Prezident Administrasiyasında Prezidentin Fərman, Sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əsas səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı İlham Əliyev 2020-ci ilin martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində də bu məsələyə xüsusi diqqət yönəldərək əminliyini ifadə etmişdir ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcək. "Deputatlar qarşısında qanunvericilik sahəsində böyük vəzifələr dayanır" söyləyən ölkə Prezidenti qeyd etmişdir ki, tövsiyəm nəinki kəmiyyətə, daha çox keyfiyyətə fikir verilməsidir: "Çünki mövcud olan qanunların təkmilləşdirilməsinə baxmaq, onları təftiş etmək lazımdır. İcra strukturlarına mənim tərəfimdən göstəriş verilmişdir ki, qəbul edilmiş qanunların icrası nə yerdədir. Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda, Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil. Ona görə Prezident Administrasiyasında xüsusi şöbə yaradıldı. Hesab edirəm ki, Milli Məclis, deputatlar da bu işlərlə məşğul olmalıdırlar. Baxın, görün, qəbul olunmuş qanunlar icra edilir, yoxsa edilmir, bu qanunları pozurlar, yoxsa pozmurlar. Əgər belə hallar aşkarlanarsa, onda əlbəttə ki, ciddi cəza tədbirləri görülməlidir." Həmin nitqində cənab İlham Əliyev onu da vurğulamışdır ki, qanunvericilik bazamızı təftiş etməliyik. Əgər lazım olarsa, onları qarşımızda duran mövcud hədəflərlə uzlaşdırmalıyıq. Çünki həyat yerində durmur, yeni çağırışlar, yeni problemlər üzə çıxır. İqtisadi islahatlarımızın dərinləşməsi işinə töhfə verən qanunlar qəbul edilməlidir.

Bu fikirlərin davamı olaraq dövlətimizin başçısı İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayında "Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik" söyləyərək qeyd etmişdir ki, bu prosesə müharibədən əvvəl start verildi. Özünü siyasi qurum adlandıran antimilli şuranı istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyil göstərdilər. Təşəbbüsümüz alqışlandı və artıq bu dialoq baş tutub. Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyəti, demokratiyanın inkişafı, iqtisadi azadlıqların bərqərar olması, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var. Cənab İlham Əliyev bu məqamı da xüsusi vurğulamışdır ki, antimilli ünsürlərlə heç vaxt bir masa arxasında otura bilmərik. Çünki onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar.

Demokratik cəmiyyətin mövcudluğunu təsdiqləyən amillərdən biri təbii ki, çoxpartiyalı sistemin yaradılmasıdır. Ölkəmizdə 60-a yaxın siyasi partiyanın qeydiyyatdan keçməsi, onların normal fəaliyyəti üçün lazımi şəraitin yaradılması göz önündədir. 1992-ci ildə qəbul olunan "Siyasi partiyalar haqqında" Qanunun dövrün, zamanın tələblərinə cavab vermədiyini nəzərə alaraq yeni "Siyasi partiyalar haqqında" Qanunun qəbul olunması da deyilənlərin bariz nümunəsidir. Ölkəmizdə keçirilən seçki proseslərində müxtəlif siyasi partiyaların iştirakı, həmçinin onları təmsil edən namizədlərin qatılması, heç bir ayrı-seçkiliyə yol verməDən seçkilərin bütün mərhələlərində eyni şəraitin yaradılması da günümüzün reallıqları sırasındadır. Məlum olduğu kimi, 9 fevral növbədənkənar parlament seçkilərində 20-yə yaxın siyasi partiya iştirak etmişdir. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, altıncı çağırış Milli Məclis çoxpartiyalı məclisdir. Bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb. Bu, demokratiyanın inkişafında önəmli addımdır.

Əvvəldə də qeyd etdiyimiz kimi, ölkədə iqtisadi və siyasi islahatların vəhdətliyinin qorunması davamlı inkişafın əsasıdır. Bu gün böyük inam hissi ilə qeyd edirik ki, Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi mümkünsüzdür. Ölkəmizin iqtisadi inkişaf modeli hazırda bütün dünyada təqdir olunur. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yeni inkişaf konsepsiyası ölkəmiz qarşısında böyük perspektivlər açır. Ölkə Prezidenti İlham Əliyev keyfiyyətcə yeni mərhələdə vətəndaş cəmiyyətinin yaradılmasını, demokratikləşmə prosesinin möhkəmlənməsini Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərt kimi dəyərləndirərək bildirir ki, siyasi və iqtisadi islahatların davam etdirilməsi zamanın tələbidir. Əgər müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik: "Bu işdə həm dövlətin üzərinə böyük vəzifələr düşür, eyni zamanda, Milli Məclisin üzərinə də böyük məsuliyyət düşür. Biz birlikdə buna nail olmalıyıq."

Siyasi sistemin dünya standartları səviyyəsinə yüksəlməsi, ölkənin iqtisadi qüdrətinin artması və demokratik proseslərin dərinləşməsi məqsədilə yeni qanunların qəbulu daim öz aktuallığını qoruyur. Milli Məclis üzərinə düşən məsuliyyətli missiyanı uğurla yerinə yetirməyə, dövlətin və xalqın maraqlarını qətiyyətlə müdafiə etməyə, dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mütərəqqi siyasi, iqtisadi və hüquqi islahatlara layiqli töhfəsini verməyə səy göstərir.

Martın 10-da Milli Məclisdə "Siyasi dialoqun Azərbaycan modeli: qanunvericilik hakimiyyətinin rolu" mövzusunda keçirilən konfrans da bir çox məqamlara işıq salır. Milli Məclisin sədri Sahibə Qafarovanın, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin, Milli Məclisdə təmsil olunan siyasi partiyaların rəhbərləri və nümayəndələrinin, Milli Məclisin 80-dək deputatının qatıldıqları konfransda bir daha qeyd edilmişdir ki, tariximizin ən parlaq səhifələrindən birini təşkil edən Vətən müharibəsi dövründə vahid mövqe nümayiş etdirən 50 siyasi partiya Prezident İlham Əliyevi dəstəklədiyini bəyan edərək Azərbaycanın siyasi sisteminin milli məsələlərdə həmrəy olduğunu hər kəsə göstərib. Prezident İlham Əliyev də martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayındakı nitqində ölkəmizdə aparılan siyasi dialoqu təqdir edərək, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyətini qeyd etmişdir. O da vurğulanmışdır ki, parlamentin qarşısında duran mühüm vəzifələrdən biri də Azərbaycanda siyasi dialoqun, siyasi islahatların dərinləşməsinə və uğurlu nəticələrlə müşayiət olunmasına dəstək və töhfə verməkdən ibarətdir. Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Prezident İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar barədə məlumat verərək, 2020-ci ilin əvvəllərindən etibarən siyasi islahatların yeni mərhələyə qədəm qoyduğunu, sağlam rəqabətə söykənən siyasi dialoqun formalaşdığını, siyasi partiyalarla fərdi, eləcə də birgə görüşlər təşkil edildiyini, 9 illik fasilədən sonra 7 siyasi partiyanın dövlət qeydiyyatına alındığını, qərargahı olmayan siyasi partiyalar üçün müvafiq yerlər ayrıldığını, habelə aidiyyəti istiqamətdə görülmüş işlər nəticəsində 25 siyasi partiyanın qurultay keçirdiyini diqqətə çatdırmışdır.

Son illərin ümumi təhlili əsasında bu fikri söyləyə bilərik ki, ölkəmizdə çoxpartiyalı sistemin təkmilləşdirilməsi istiqamətində atılan addımlar milli birliyin, həmrəyliyin möhkəmləndirilməsinə geniş imkanlar açıb. Siyasi partiyalar arasında əməkdaşlığın inkişaf etdirilməsi fonunda ölkənin dayanıqlı inkişafı ilə bağlı təkliflər, ideyalar ortaya qoymaq, onların reallığa çevrilməsi üçün səyləri birləşdirmək mümkündür. Hazırda inkişafın yeni mərhələsini yaşayan Azərbaycanda Böyük Qayıdış proqramına hazırlıq işləri görülür. Milli birliyimizi, həmrəyliyimizi möhkəmləndirməklə bu istəyimizi də hər kəsdə qürur doğuracaq şəkildə reallaşdıra bilərik.

***Yeganə Əliyeva***

# Türkiyə ilə Azərbaycanı birləşdirən ortaq dəyərlərdir

**“İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək, bildiyiniz kimi, bütün Azərbaycan xalqını çox məmnun etdi. Bu, təbiidir. Çünki iki qardaş ölkə daim bir-birinin yanındadır”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib. Qeyd edib ki, Prezident Rəcəb Tayyib Ərdoğanın ilk saatlardan bizə verdiyi siyasi və mənəvi dəstək, əlbəttə ki, bizi çox ruhlandırdı: “Eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin rəhbəri hörmətli Mustafa Şentop və parlament üzvləri də bizə həmrəylik və dəstək göstərmişlər. Yəni, bu müharibə günləri bir daha göstərdi ki, bizim xalqlarımız nə qədər bir-birinə bağlıdır, nə qədər bir-birinə sevgi ilə və hörmətlə yanaşır”.**



Əlbəttə ki, Azərbaycanla Türkiyə dövlətləri arasında dostluq və qardaşlıq əlaqələri qədim tarixə malikdir. Əsrlər boyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin daha da möhkəmləndirilib genişləndirilməsi dövlət başçımızın həyata keçirdiyi xarici siyasətin prioritetini təşkil edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatıb, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçib. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Siyasi, iqtisadi, enerji, nəqliyyat - bütün sahələrdə çox böyük nailiyyətlər əldə edilib. Dövlət başçısı parlamentlərarası əlaqələrimizin də çox uğurla inkişaf etdiyini bildirib: “Həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir yerdəyik, bir-birimizi dəstəkləyirik”.



Müasir dövrümüzdə Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. İkitərəfli iqtisadi münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər, imzalanan müqavilələr xüsusi mərhələnin əsasını qoymuşdur. Ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və transregional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr həyata keçirilib. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. layihələri bu baxımdan ən yaxşı nümunələrdir. İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə TANAP Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və təchizatın diversifikasiyası baxımından böyük önəm daşıyır.

Görülən işlər, həyata keçirilən tədbirlər iki dövlət arasında əlaqələrin gücləndirilməsinə təkan verməklə yanaşı, Azərbaycanın rifahı və gələcək inkişafında önəmlidir. Təbii ki, bu uğurların reallaşmasında hər iki ölkənin dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə aidiyyəti qurumların rəhbərlərinin qarşılıqlı səfərləri ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynayır. Bu gün Türkiyə-Azərbaycan dostluğu dünyaya nümunədir. Ulu Öndər Heydər Əliyev tərəfindən möhkəm özüllər üzərində qoyulmuş dostluq və qardaşlıq münasibətləri Prezident İlham Əliyevin siyasi xəttinin prioritetini təşkil edir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində Türkiyə qardaş, dost ölkə olaraq Azərbaycanın yanında oldu. Təbii ki, buna qədər də Türkiyə Azərbaycanın yanında olduğunu əməli fəaliyyətdə sübut etmişdir. Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərmiş, dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycana böyük dəstək vermişdir. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanmasına hər zaman etirazını bildirmiş, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində xüsusi fəallıq göstərilmişdir. Cənab Prezident qeyd edib ki, bu gün bizim bölgəmizdə yeni vəziyyət yaranmışdır, yeni reallıq yaradılmışdır: “Artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı, artıq həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq və bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik, xüsusilə nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması çox önəmli məsələlərdən biridir. Əminəm ki, birgə səylərlə buna da nail olacağıq”

Göründüyü kimi, Türkiyə-Azərbaycan əlaqələri daimidir və bu əlaqələr hər zaman yüksələn xətt üzrə inkişaf edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan diasporu ABŞ-ın Boston şəhər merinin qərarına etiraz edir

**ABŞ Azərbaycanlıları Koordinasiya Şurası adından Massaçusets ştatının paytaxtı Boston şəhərinin merinə etiraz məktubu ünvanlanıb. SİA-nın xəbərinə görə, etiraz məktubuna səbəb beynəlxalq səviyyədə tanınmış müharibə cinayətlərindən biri olan Xocalı soyqırımının anma günü ilə əlaqədar mer Martin J.Walshun imzaladığı bəyannaməni, erməni lobbi qruplarının təzyiqi ilə, geri çəkməsi və üzr istəməsi olub.**



To Martin J. Walsh
Mayor of Boston

Dear Martin J. Walsh,

As a large American-Azerbaijani community, we are concerned about your statement to withdraw the proclamation issued on the Khojaly Commemoration Day.

However, we understand that your decision proceeds from the yet another manipulative action by the Armenian diaspora, which is trying to deceive the society and the government by speculating in various ways to embrace the aggressive policy of Armenia.

You should be informed that Armenia, contrary to all international norms and rules, has held the territory of Azerbaijan under occupation for thirty years. As well as the event in Khojaly, where the "largest massacre of the 1990s" took place (Human Rights Watch, 1992), and in other territories of Azerbaijan occupied by Armenia (see Resolutions 822, 853, 874, 884 of the UN Security Council on the Nagorno-Karabakh conflict, 1993 g) brutal crimes were committed. Moreover, the Armenian diaspora all this time has provided increased financial and lobbying support and Armenia openly clams about this.

All overmentioned, as well as the information on the victims of Khojaly indicated in your proclamation, “8 families were annihilated completely; 25 children lost both parents, 130 children lost one of the parents; 487 people were wounded, including 76 children; and 1275 civilians captured hostage” are the facts.

What has changed, even if you communicated with the Armenian Diaspora, even they are one of the three largest Armenian communities in the US, even the city provided a such kind opportunity for this community to create the Armenian Heritage Park, even if as city office held a special centennial commemoration for the victims of the Armenian Genocide, without conferring with all other potentially impacted nations?

Has the above said changed the facts of the Khojaly genocide? Can we bring back the lives or dreams of children who have experienced the horrors of this tragedy?

However, the proclamation at least can somehow disturb the Armenian diaspora and make them think that, in the USA, in a country that is considered the herald of democracy and justice, regardless of the size of the community, nationality, religion and belief, everyone pledges to respect the laws and human values, and those who support the occupation policy even in distance, that took thousands of civilian lives and forced 1 million people to leave their homes fleeing the horror, can be held responsibility for the crimes and stop support for willful atrocities in the future.

The Azerbaijani people have always been distinguished by their peacefulness, and the aspiration for a peaceful settlement of the conflict within the framework of international law for 30 years is proof of this.

We very much hope that state and government officials, members of Congress to show respect in international law, will not agree to take the blame of the millions of civilians who suffered during the Nagorno-Karabakh conflict because of the fictional history of the ideologists and politicians of the Armenia.

Again, simply relying on the fact that the Armenian people, who erected a monument in 1978 to commemorate the 150th anniversary of their resettlement to Azerbaijani lands, in the 90s put forward territorial claims to Azerbaijan. It is worthwhile to think somehow, citing facts about the existence of the largest Armenian community and the Armenian Heritage Park in Greater Boston.

Khojaly is still a sobering reminder of the terrible damage that can be inflicted in wartime and it exemplifies the enduring need for greater understanding, communication, and tolerance among people worldwide.

The Azerbaijani community will understand your position to stay out of conflicts between other nations only when you apologize to thousands of Azerbaijanis living in the United States for the for this undeserved disrespect, including the denial of recognition of the Armenian genocide, as you recently did Khojaly Genocide.

On behalf of the Azerbaijani community of the United States,

Aytaj Gasimova, North American Azerbaijani Youth Association, Washington DC

Ercan Yerdelenli, Azerbaijan Association of New York, NYC, NY

Farid Mammedov , Azerbaijan Center of Midwest America , Chicago , IL

Mehriban Mammedova , Azerbaijan Center of Midwest America , Chicago, IL

Minavvar Vahabova Azerbaijani American Women Association of New York, Manville, NJ

Samir Novruzov, “The United States - Azerbaijan Karabakh Horses Rescue Association", Houston, TX

Telman Jalil, Azerbaijan New York Cultural Center, NYC, NY

Məktubda qeyd edilib: “Bizə məlumdur ki, qərarınız Ermənistanın təcavüzkar siyasətini qəbul etmək üçün müxtəlif yollarla spekulyasiya edərək cəmiyyəti və hökuməti aldatmağa çalışan erməni lobbisinin növbəti manipulyasiya hərəkətindən irəli gəlir.

1992 ci ildə Xocalıda baş verənlər Human Rights Watch beynəlxalq insan hüquqları təşkilatı tərəfindən “1990-cı illərin ən böyük qırğını” adlandırılıb. Eyni zamanda, Xocalı qurbanları haqqında imzaladığınız bəyannamədə göstərilən “8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 76-sı uşaq olmaqla 487 nəfər yaralanıb və girov götürülmüş 1275 mülki şəxs” danılmaz faktlardır.

Bildirilib ki, Azərbaycan xalqı həmişə sülhpərvərliyi ilə seçilib və münaqişənin 30 il ərzində beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə həll olunmasına can atması buna sübutdur.

Azərbaycan icması digər millətlər arasındakı münaqişələrlə bağlı neytral mövqeyinizi ancaq bu ayrı-seçkiliyə görə ABŞ-da yaşayan minlərlə azərbaycanlıdan üzr istədiyiniz zaman başa düşəcəkdir”.

Qeyd edək ki, həmvətənlərimiz Boston şəhər merinin qərarına etiraz olaraq aksiya da keçirib. Nyu England Amerika Azərbaycanlıları Mərkəzinin təşkilatçılığı və Azərbaycan Nyu-York Assosiasiyasının dəstəyi ilə Boston şəhərinin mərkəzində keçirilən aksiyada Boston, Vaşinqton, Nyu-York, Konnektikut, Meyn də daxil olmaqla, yaxın şəhər və ştatlardan gələn azərbaycanlılar və türk icmasının aktivləri iştirak edib. Həmvətənlərimiz şəhər meri Martin J.Walsha ermənilərin diktəsi ilə Xocalı həqiqətlərinin tanınması haqqında qərarın ləğvinin qəbuledilməz olduğunu bildiriblər.

***Gülyana***




# Azərbaycanda sutka ərzində koronavirusa 376 nəfər yoluxub

**Azərbaycan Respublikasında sutka ərzində koronavirus infeksiyasına 376 nəfər yoluxub, 101 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.**

Hazırkı dövrədək ölkəmizdə 240 min 671 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 231 min 61 nəfər müalicə olunaraq sağalıb, 3286 nəfər vəfat edib. Aktiv xəstə sayı 6324 nəfərdir. Ötən müddət ərzində 2 milyon 716 min 17 test aparılıb. Bugünkü test sayı isə 5891-dir.

# Yaponiyanın JIJI PRESS agentliyi: “Qalib Azərbaycan böyük qayıdışa hazırlaşır”

**Yaponiyanın nüfuzlu JIJI PRESS agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici KİV-lər üçün keçirdiyi mətbuat konfransı barədə analitik məqalə yayıb.**


JIJI.COM 記事一覧 連載 特集 ランキング 写真・動画 2021年3月12日(金) 東京都(東京) 13℃/9℃ 70%
トップ 政治 国際 社会 経済 スポーツ エンタメ 地域 ライフ 予定 メディカル
【速報】みずほ銀のシステム障害は11日午後11時39分に発生した
時事ドットコムニュース > 特集 > 【地球コラム】住民が消えた村～戦後のナゴルノカラバフ現地ルポ～
【地球コラム】住民が消えた村～戦後のナゴルノカラバフ現地ルポ～
「勝者」アゼルバイジャン、入植準備か
昨年9月～11月にかけて再燃した係争地ナゴルノカラバフをめぐる紛争でアルメニアを圧倒したアゼルバイジャンが支配権拡大に向け、係争地周辺で大規模インフラ開発を進めている。アルメニア系勢力の占領で1990年代前半以降、廃墟となった地域に少しずつ住民を帰還させ、ゆくゆくは現在ロシアの平和維持部隊が駐留する係争地の中心部でも支配権を回復させたいようだ。
ただ、現地で暮らすアルメニア住民との融和は容易でない。アリエフ大統領は「共存は可能だ」と訴えるが、長年の紛争による住民レベルでの
記者会見するアゼルバイジャンのアリエフ大統領＝2021年2月26日、バクー【筆者撮影】【時事通信社】
新型コロナウイルス最新情報 感染者+1,319人 総計 444,336人
フォーカス
停止相次ぐアストラ製 / 指摘に釈明 小池都知事 / 優香さんとの関係は? / いいのか! 韓国の新聞 / 国内容認 採決賛は? / ウィリアム王子が反論 / 29年ぶり 音響測定艦 / れいわ木村氏が感染 / 高齢秒裡 新種目で / F1並みの超高性能 / ランボ日本限定モデル / 新作は「脱獄!」
時事通信のSNS

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, agentliyin İstanbul müxbiri Ryo Yoşiokanın müəllifi olduğu “Qalib Azərbaycan böyük qayıdışa hazırlaşır” adlı məqalədə Azərbaycan Prezidentinin 4 saatdan artıq davam edən mətbuat konfransı barədə ətraflı məlumat verilir. Bildirilir ki, Xocalı soyqırımının 29-cu ildönümündə keçirilən mətbuat konfransında Prezident İlham Əliyev jurnalistlərin suallarını Azərbaycan, türk, rus və ingilis dillərində tərcüməçilərə ehtiyac duymadan cavablandırıb.


JIJI.COM 記事一覧 連載 特集 ランキング 写真・動画 2021年3月12日(金)
【速報】みずほ銀行のシステム障害で、外貨建て送金300件強で遅れが出た
【地球コラム】住民が消えた村～戦後のナゴルノカラバフ現地ルポ～
消えない「虐殺」のトラウマ
住民が家を失う状況が繰り返される紛争の解決に向け、アゼルバイジャン人とアルメニア人の共存の促進が避けられない課題だ。アゼルバイジャンはナゴルノカラバフでの支配確立後、「アルメニアの人々との共存は可能だ」(アリエフ大統領)と言う。しかし、住民レベルでの相互不信は根深く、実現は決して容易ではない。前出の村からアルメニア人全員が去ったのも、将来のアゼルバイジャン当局による統治への恐怖や不信感の現れだろう。
一方で、かつてアルメニア人勢力の伸長で故郷を追われたアゼルバイジャンの人々も、祖国
放置された家屋＝2021年2月27日、アゼルバイジャン・フズリ【筆者撮影】【時事通信社】

Məqalədə mətbuat konfransında Azərbaycan Prezidentinin giriş sözlərindən istifadə edilərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, Birinci Qarabağ müharibəsinin yekunu olaraq azərbaycanlıların ata-baba yurdlarından qovulması, təqribən 30 il əvvəl işğal edilmiş torpaqların ötən ilin sentyabrında başlayan Vətən müharibəsi nəticəsində azad edilməsi barədə ətraflı məlumat verilir. Bildirilir ki, torpaqları Ermənistanın işğalından azad edən Azərbaycan hazırda həmin ərazilərdə böyük bərpa və quruculuq işlərinə start verib.


JIJI.COM 記事一覧 連載 特集 ランキング 写真・動画 2021年3月12日(金)
【速報】みずほ銀行のシステム障害で、外貨建て送金300件強で遅れが出た
【地球コラム】住民が消えた村～戦後のナゴルノカラバフ現地ルポ～
制圧の村、なお生活感
建設中の空港から先に進むと、道の起伏が多くなり、ナゴルノカラバフに入る。道路脇の検問所には勝利を誇示するアリエフ大統領のポスターなどが掲げられているが、人の気配はない。唯一、交差点の検問所には兵士が配置に就き、数少ない車両の出入りを入念にチェックしていた。
検問所を超えると、山腹を蛇行する道はいよいよ険しくなる。空港があった地域から車に乗って1時間ほどで、アゼルバイジャン軍が制圧する前までアルメニア人住民が暮らしていた村ビョユクタラル(アルメニア名メッズタイル)に到着した。1000人以上が暮らしていたとみられる集落から
住民が消えた村＝2021年2月27日、ナゴルノカラバフ・ビョユクタラル【筆者撮影】【時事通信社】

Yazıda ermənilərdən fərqli olaraq, doğma torpaqlarına qayıdacaq azərbaycanlıların bütün çətinliklərə baxmayaraq, onlarla birgə yaşamağa hazır olduğu qeyd edilir. Azərbaycan Prezidentinə istinadla iki xalqın birlikdə yaşamasının mümkün olduğu vurğulanır. Bildirilir ki, münaqişə zonasında rus sülhməramlılarının yerləşdirilməsi tərəflər arasında baş verə biləcək hər hansı qarşıdurmanın mümkünlüyünü aradan qaldırır.


JIJI.COM 記事一覧 連載 特集 ランキング 写真・動画 2021年3月12日(金)
【速報】みずほ銀行のシステム障害で、外貨建て送金300件強で遅れが出た
【地球コラム】住民が消えた村～戦後のナゴルノカラバフ現地ルポ～
すう勢決めるトルコとロシア
バクーでは2月26日、国内外の記者を集め、アリエフ大統領による記者会見が行われた。ホジャリ大虐殺29周年のタイミングに合わせた会見だが、アリエフ氏がナゴルノカラバフでの「勝利」を自ら国内外にアピールする舞台となった。アリエフ氏はオンラインでの参加となったものの、会場に集まった記者の大半から質問を受け付け、4時間超にわたって質疑応答が続いた。やり取りはアゼルバイジャン語に加えて、トルコ語、ロシア語、英語で行われ、アリエフ氏は4カ国語ですべての質問に通訳を介することなく即答していた。
取材に応じるトルコ人現場監督者＝2021年2月27日、アゼルバイジャン・フズリ【筆者撮影】【時事通信社】

Məqalədə mətbuat konfransından bir gün sonra yapon jurnalistin də daxil olduğu qrupun münaqişə zonasına səfəri, burada qarşılaşdığı quruculuq və bərpa işləri barədə ətraflı məlumatlara da geniş yer verilir. Bildirilir ki, həmin qrupun ilk səfər etdiyi Füzuli rayonunda ötən əsrin 90-cı illərində yaşamış azərbaycanlılar Ermənistan ordusunun hücumu nəticəsində ərazini tərk edərək məcburi köçkünə çevriliblər. 2020-ci ilin Vətən müharibəsi nəticəsində onların doğma evlərinə qayıtmalarına şərait yaranıb.

Azad edilmiş ərazilərdə infrastrukturun bərpa edilməsi ilə yerində tanış olan əcnəbi jurnalistlər ilk olaraq Füzuli beynəlxalq aeroportunda uçuş-enmə zolağının inşası prosesini izləyiblər. Müəllif qeyd edir ki, hazırda ərazidə sayı 100-ə çatan ağır texnika işləyir. Burada inşa ediləcək dispetçer-nəzarət qülləsi həm sərnişinlər üçün təyyarələrin uçuşuna, həm də radiolokasiya sisteminin monitorinqinə şərait yaradacaq.

Yazıda, həmçinin bildirilir ki, Ermənistanın ərazidə basdırdığı minalar bərpa və quruculuq işlərinə maneə yaradır. Həmin minaların təmizlənməsinə böyük qüvvələrin cəlb edilməsinə baxmayaraq, ermənilərin ərazinin mina xəritələrini Azərbaycana təhvil verməməsi böyük çətinliklərə səbəb olub. Müəllif qeyd edir ki, ərazidə işlərin böyük sürətlə aparılması azərbaycanlıların buraya tezliklə qayıdacağını və yeni yaşayış məskənləri salacağını deməyə ciddi əsas verir.

Məqalədə ermənilərin 1992-ci ildə Xocalı şəhərində mülki əhaliyə qarşı törətdiyi soyqırımı barədə məlumatlara da yer verilib. Hadisələrin şahidi olmuş Samirə Hüseynovaya istinadla ermənilərin burada törətdiyi vəhşiliklərdən və qətliamdan bəhs olunub. Həmin etnik təmizləmə zamanı əksəriyyəti qadın və uşaq olmaqla 613 nəfərin qətlə yetirildiyi qeyd edilib. Yazıda aparılan bərpa işlərində Türkiyə şirkətlərinin iştirakına da xüsusi diqqət yetirilib. Məqaləyə müəllifin səfər zamanı çəkdiyi çoxsaylı fotolar da əlavə edilib.




## “BCI” beynəlxalq media portalında Ağdam rayonundan bəhs olunan videomaterial yerləşdirilib

**“BCI” beynəlxalq media portalının əməkdaşı Ağdam rayonu ilə bağlı yunan dilində videomaterial hazırlayıb. AZƏRTAC xəbər verir ki, videomaterialda Ağdamı “Qafqazın Xirosiması” adlandıran müəllif bildirir ki, rayon təxminən 30 ildən sonra erməni təcavüzündən azad edilib.**

Vurğulanır ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən əvvəl Qarabağın incisi sayılan Ağdam bölgənin ticarət mərkəzi olub, burada üzümçülük və şərabçılıq geniş inkişaf edib. İşğal nəticəsində rayonun əhalisi doğma torpaqlarından didərgin salınıb, rayon isə darmadağın edilib. Müəllif hazırkı Ağdamı infrastrukturu, mədəni irsi olmayan “kabus şəhər” adlandırır. Diqqətə çatdırılır ki, buradakı bütün muzeylər, tarixi abidələr, xəstəxanalar, məktəblər, ictimai binalar və evlər məhv edilib, avtomobil və dəmir yolları dağıdılıb. Ağdam şəhərində yalnız məscid qalıb.

Müəllif qeyd edir ki, rayonun bərpası üçün müəyyən vaxt lazım olacaq. Lakin bərpa işlərindən əvvəl bölgəni minalardan zərərləşdirmək lazımdır. Bildirilir ki, artıq bu işlər həyata keçirilir.

## Ara Saqatelyan: “Dünyanın gözündə “papuasa” çevrilirik”

**Bu gün heç kim ölkəmizlə gələcək barədə danışmır, çünki hökumətimiz qanunsuzdur və Ermənistan müharibədəki biabırçı məğlubiyyətə görə subyektivliyini itirib. SİA xəbər verir ki, bunu Milli Məclis Aparatının keçmiş rəhbəri, müharibədən sonrakı ilk siyasi məhbus Ara Saqatelyan “24News” efirində deyib.**



“Biz hətta ləyaqətlə uduzsaydıq belə baş nazir istefa etməli idi. Xalq bütün bu dövrü axmaq yerinə qoyuldu. Bu dövrdə idarəetmədə dəhşətli səhvlər olmasaydı ölkə üçün daha yaxşı olardı.

Dünya bizi heç bir şəkildə anlaya bilməz. Siyasi məsuliyyətin olmaması üzündən hər gün dünyanın gözündə papuasa çevrilməkdə davam edirik. Uçuruma yuvarlanırıq. Ədalətsizlik bu ölkədə heç vaxt belə bir vəziyyətdə, bu səviyyədə olmamışdı. Bu gün uşaqlarımızın gələcəyini satırıq”, deyə Ara Saqatelyan bildirib.

Öz həbsinə toxunan Ara Saqatelyan, istintaq orqanı nümayəndələrinin məhkəmədəki davranışlarından da göründüyü kimi, bunun bir siyasi sifariş olduğunu deyib.

“Ölkəmizdə baş nazir vəzifəsini tutan şəxsin qərar qəbul etmə mexanizmi yoxdur. Qeyri-adi bir şey deyir. Həbs olunmağımın səbəbi onun bir gün əvvəl çox içməsi və pis əhval-ruhiyyədə olması da ola bilər. Bu ölkə digərlərinə oxşar və qanuni şəkildə idarə olunur, bu səbəbdən də bu vəziyyətdəyik. Paşinyanın gözlərində Ara Saqatelyan bir piramidanın zirvəsindədir. Bu insan o qədər savadsızdır ki, ictimai münasibətlərin yalnız bir piramida şəklində qurulduğunu anlamır. MTX zabiti olan ciddi şəxslər nəyin bahasına olursa olsun həbs olunmağımı istədi.

Bundan əlavə, kifayət qədər məlumatımız var və bunun da Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Mikael Hambardzumyanın Milli Təhlükəsizlik Xidmətindən siyasi təzyiq aləti kimi istifadə etməsinin nəticəsi olduğu bəllidir. Bunu, Mikael Hambardzumyanın əsassız cinayət işlərinin başlanılması yolu ilə istifadə edildiyi barədə dediklərindən də bilirik”, deyə Ara Saqatelyan bəyan edib.

***İnam Hacıyev***

# Salam Ağdam, biz bu dəfə həmişəlik gəldik!

## Səfər təəssüratlarımdan qələmimə sızan düşüncələrim...

**Martın 13-də - media qurumları və QHT rəhbərlərinin, blogerlərin və ictimai fəalların işğaldan azad olunmuş Ağdam şəhərinə baş tutan səfəri ömrümün ən silinməz xatirə guşələrindən birinə yazıldı. Çünki bu səfər hazırkı dövrə qədər etdiyim bütün səfərlərdən fərqli və təsirli idi. 30 ilə yaxın düşmən tapdağında qalmış və Müzəffər Ali Baş Komandanımız, Qalib Sərkərdəmiz cənab İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş torpaqlarımıza doğru hərəkət edərkən çoxsaylı düşüncələrimiz bizləri rahat buraxmırdı...**





Xüsusilə, dünyada "Qafqazın Xirosiması", yaxud "Qafqazın Stalinqradı" adını alan Ağdamımıza reallaşdırılmış səfər əsnasında düşmənin nə qədər vəhşi, vandal olması faktı gözlər qarşısındakı ağır, sarsıdıcı mənzərəsi ilə yanaşı, həm də bütün çılpaqlığı ilə canlandı. Məhz çılpaqlığı ilə, çünki vaxtilə Qarabağımızın cənnətməkan guşəsi kimi gözlər oxşayan şəhərdən heç bir əsər-əlamət qalmayıb. Ağdamın torpağına qədəm qoyar-qoymaz hiss olundu ki, yaralı şəhərimiz ölüm səhrasında əsən yellərtək inləyirdi, fəryad edirdi. Çöllükdə vıyıldayan külək buralarda 27 il əvvəl yaşanmış dəhşətləri bir daha bizə çatdırırdı. İlk bahar çağındakı soyuq Ağdamımızı əfsuslar olsun ki, belə gördük...





### Biz Ağdama "salam!" dedik və onu da dedik ki, bu dəfə həmişəlik gəlmişik!

Kiçik bir qeydimi də əlavə etmək istərdim. Bu gün çoxları sual edirlər ki, digər işğaldan azad olunmuş torpaqlarımızda da dəhşətli dağıntılar, erməni qəsbkralığının, talanının izləri var, lakin Ağdamın tamamilə yerlə-yeksan olması, həqiqətən də, tamamilə fərqlidir və bunun səbəbi nədədir? Deyilənə görə, ağdamlılar birinci Qarabağ müharibəsində düşmənə elə bir sərt müqavimət göstəriblər ki, xəyanət və satqınçılıq nəticəsində əldən verilən bu şəhərə qarşı erməni işğalçılarının məxsusi nifrətləri yaranmışdı. Onlar Ağdamda daşı-daş üstündə qoymayacaqlarına sanki and içmişdilər və indi hər şey göz qabağındadır. Tarix isə unutmur və 27 il öncəki hadisələri yenidən və bu dəfə başqa prizmadan sərir nəzərlərimiz qarşısına.



### Minalanmış Ağdam: Hər addımda ölüm, hər addımda qan-qada nəfəsi sanki orada yürüyən insanları daban-dabana izləməkdədir

Səfər müddətində Ağdam rayonunun Baş Qərvənd kəndinə getdik və dəmir yolu ətrafında minatəmizləmə əməliyyatlarını müşahidə etdik. Minlərlə, on minlərlə, hətta yüz minlərlə minalar didik-didik edilmiş Qarabağımızda hələ də insanlarımızın həyatlarına ölüm təhlükəsi saçmaqdadır. Düşmən bu gün də mina xəritələrini bizə təqdim etməməsi ilə öz qanlı, qatillik, terrorçuluq xislətində qaldığını isbatlamaqdadır. Ancaq buna baxmayaraq, bir sıra beynəlxalq minatəmizləmə təşkilat və qurumları Azərbaycan minaaxtaranları ilə bir yerdə əraziləri illər əvvəl əkilmiş ölüm toxumlarından təmizləməkdədirlər. Bu prosesin nə qədər ağır olduğunu da görmək, hiss etmək elə də çətinlik yaratmır. Hər addımda ölüm, hər addımda qan-qada nəfəsi sanki orada yürüyən insanları daban-dabana izləməkdədir. Lakin buna baxmayaraq, torpaqlarımızın minalardan təmizlənərək yeni nəfəs alacağını, dirçələcəyini də əminliklə deyə bilərik. Elə Ağdamımıza başlanan səfərin də, məhz minatəmizləmə əməliyyatlarını izləməklə başlamağımız bu qənaətə gəlməyə kifayət qədər zəmin yaradır.

### Keçilməz istehkam stereotipi belə məhv edildi

Yağı düşmən Ağdamı özünə bir platsdarma çevirmişdi. Hesab edirdi ki, keçilməz sədd olan bu şəhər heç vaxt öz sahibinə geri qaytarılmayacaq. Amma düşmən yanılmışdı və bu səfərimiz də mənfur işğalçının həmin səhvini kifayət qədər təsdiqləmiş oldu - biz azad Ağdamda idik, öz elimizdə, öz torpağımızda, öz məmləkətimizdə!

Erməni qəsbkarlarının Ağdamdakı istehkamları üzərində illər ərzində sərf etdikləri əməklərindən nəticə çıxarmaq olar: elə rayonlar var ki, onların hərbi yolla yox, dinc üsulla işğaldan azad edilməsi olduqca münbət haldır. Bəziləri Ağdamın Azərbaycana qaytarıldığını ifadə edirlər. Xeyr, bunu belə təqdim etmək lazımdır - Ağdam da işğaldan azad olundu! Çünki ermənilər həmin torpaqları öz xoşuna tərk etmədilər, digər cəbhələrdə aldıqları ağır məğlubiyyətlərini Ağdamda da dadacaqlarını dərk etdilər. O cümlədən, Ağdam rayonu böyük strateji

# Salam Ağdam, biz bu dəfə həmişəlik gəldik!

## Səfər təəssüratlarımdan qələmimə sızan düşüncələrim...





əhəmiyyətə malikdir və onun işğaldan azad olunması ilə demək olar ki, Qarabağdakı bütün yollara nəzarət imkanı məhz bizim əlimizdədir.

Düşmən istehkamlarına gəlincə isə, cənab Prezident İlham Əliyevin bir ifadəsini xatırlatmaq istərdim. O, çıxışı əsnasında bildirmişdi ki, müharibənin bütün sirlərini açmaq hələ ki, tezdir. “Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda”, deyə vurğulayan cənab Ali Baş Komandanımız da, əslində, işğalçı qüvvələrin burada nə qədər güclü istehkamlar, sədlər qurduqlarını qeyd edib. Bu baxımdan, digər torpaqlarımız, əsasən də, Şuşamız azad olunduqdan sonra düşmən kapitulyasiya aktına imza atdı və Ağdamımız qansız-qadasız işğaldan xilas edildi. Bu isə Qalib Sərkərdəmizin hərbi strategiyasının bariz təcəssümü kimi qiymətləndirilə bilər. Ağdamın azad olunması həm düşmənin onurğa sütununun qırılması, həm də “qalib stereotipinin” məhvi kimi qiymətləndirilə bilər.

### Ağdam şəhidliyi bizə “biz sizləri çoxdan gözləyirdik” dedi...

Ən ağrılı məqamlardan biri isə Ağdamdakı Şəhidlər Xiyabanının və Ağdam Cümə məscidinin vəziyyəti idi. Bu iki müqəddəs yerlərin mənfur düşmən tərəfindən talana, vandalizmə məruz qalmaları damarlarımızda axan qanı bir anlığa da olsa dondurdu. Uzundərədəki II Şəhidlər Xiyabanında dağıdılmış məzarlar sanki dil açıb “biz sizləri çoxdan gözləyirdik” deyirdilər və biz onları ziyarət edərkən, onlar da bizləri qarşılayırdılar, özü də həsrətlə, tələsik...

Daha sonra partladılmış avtovağzal, dağıdılmış məktəb binaları, xəstəxanalar kompeksi, Ağdamın məhv edilmiş məşhur səs-küylü passaj bazarı, şəhərin mərkəzində qəsb olunmuş Çay evi, yer üzündən silinmiş Mərkəzi meydan və oradakı mədəniyyət ocağı - Dram Teatrı, İcra Hakimiyyətinin binası, Qarabağ xanlarının abidələr kompleksi və İmarət qəbirstanlığı, Ağdamın “Qarabağ” FK-nun “imarət” stadionu, Çörək muzeyi, 1941-1945 abidəsi, I Şəhidlər Xiyabanı, Qarağacı məzarlığı, Şahbulaq qalası və s. yerlər addım-addım ziyarət olundu və bu ziyarət zamanı keçirilən hər bir acı təəssüf hissi qəlbimizə batan bir tikan təsirini bağışladı. Onların hər birinin yalnız inləyən soyuq və əsir daşları qalmışdı.

### Müzəffər Ali Baş Komandan: “Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb”

Ancaq bundan sonra belə olmayacaq və Prezident İlham Əliyevin Ağdama etdiyi səfərindəki fikirlərini bir daha xatırlatmaq yerinə düşərdi. Dövlət başçımız vurğulayıb ki: “Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim “Qurani-Kərim”i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.



Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq”.



Bəli, bizim gücümüz daha da artıb və söz yox ki, nəinki Ağdamımızın, bütün azad olunmuş torpaqlarımızın bərpasında ümumxalq, ümummilli dəstəyimizlə, Müzəffər Ali Baş Komandanımızın ətrafında daha da sıx birləşməklə quruculuq işlərinə töhfələrimizi verəcəyik. Bu, həm də bizim mənəvi vətəndaşlıq borcumuzdur.

Bəhruz QULİYEV,
“SƏS” qəzetinin baş redaktoru,
fəlsəfə üzrə fəlsəfə doktoru



***P.S. Ağdamdan ayrılarkən, biz vidalaşmadıq, əksinə, onu bir daha ziyarət edərək, üzərindən Füzuliyə, Şuşaya, Kəlbəcərə, Laçına, Ağoğlana, Xocavəndə və digər torpaqlarımıza da “Qarabağ Azərbaycandır!” şüarı ilə səfər edəcəyimizi müəyyənləşdirdik. Belə ki, bu doyumsuz bir hisslərdir və hər anımızı o torpaqlarda keçirmək üçün bitməz arzular qəlbimizdə döyünür...***

# Bu gün sonuncu çərşənbə - Torpaq Çərşənbəsidir

***Bu gün sonuncu çərşənbəni Torpaq Çərşənbəsini qeyd edirik. İllərdir arzuladığımız və bu gün böyük məsləkimizə qovuşduğumuz torpaqlarımızın işğaldan azad olunduğu bir zamanda çərşənbəmizi qeyd edirik. Novruz ənənələri yenidən 30 ilə yaxın həsrətində olduğumuz doğma torpaqlarımızda yaşanılacaq, tonqallar qalanacaq, od-alov aləmə yayılacaqdır. Torpağımıza isti nəfəs gəlib, torpaq həsrətlə gözlədiyi sevincinə qovuşub. Torpaqlarımız dərindən nəfəs alır. Tarixdən boylanan zamanın daşlaşmış yaddaşında olan təbiətdən gələn yeni bir günü Qələbə tarixini yaşamış xalqımız böyük sevinclə qarşılayır.***



Bu gün Novruz bayramının astanasındayıq. İlin ən gözəl zamanının... Novruz bayramı xalqın tarixi kökünü, adət-ənənələrini özündə yaşadan gündür. Əsrlərdir qeyd olunan bu bayram öz gözəlliyi, bəşəriliyi ilə seçilir və insanların milli-mənəvi dəyərlərərimizə olan sevgisini və bağlılığını özündə ehtiva edir. Novruz sözünün etimologiyasına diqqət etsək, görərik ki, bu sözün həqiqi mənası yeni günün başlanması deməkdir.

Dörd ünsürdən yaranmış İNSANlar Novruz bayramına qədər dörd Çərşənbəni qeyd edir. Novruzaqədərki yaxın 4 həftənin 2-ci günlərini-çərşənbələri ulularımız Su, Od, Yel və Torpaq Çərşənbəsi adlandırmışlar. Rəmzi məna daşıyan çərşənbələri ulu babalarımız bayram hesab etmişdilər. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır.

Bu gün qeyd etdiyimiz xalq arasında torpaq çərşənbəsi "İlaxır Çərşənbə", "Yer Çərşənbəsi", "Çərşənbə-Suri" kimi də adlanan sonuncu qərşənbəmizi qeyd edirik. Torpaq Çərşənbəsində torpağa istilik gəlir və bütün təbiət oyanmağa başlayır, otlar cücərir, ağaclar tumurcuqlayır ki, bu da baharın gəlişindən xəbər verir. Torpaq Çərşənbəsi torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Dörd ünsürdən sonuncunun oyanması ilə Sel, Atəş, Yel və Torpaq daha böyük güc alır. İnsanlar yoxsulluq və qıtlıqdan, çətinlik və məhrumiyyətdən xilas olurlar. Axır Çərşənbə mərasim, ayin, etiqad, oyun və şənliklərlə daha çox zəngindir. Bu Çərşənbədə əvvəlki çərşənbələrdə icra olunan bütün ayinlər kütləvi xalq şənlikləri ilə qeyd olunur. Şənliklər sübh tezdən suya tapınma ayini ilə başlanır. Adamlar su üstünə çıxıb, su üstündən atdanaraq, dərdini, arzusunu suya danışıb, ondan imdad diləyirlər. Gün ərzində müxtəlif ayinlər keçirilir. Axır Çərşənbənin axşamı şənliklər daha da güclənir. İnsanlar tonqalın üstündən atılıb ağrı-acılarının oda tökülməsini arzu edirlər: "ağırlığım, qadam-balam tonqalda yansın". Burada məqsəd qışdan qalan dərdin, ağrı-acının adamın canından çıxması, insanın sağlam ruhla, saf qəlblə bayrama qovuşmaq istəyidir.

Qulaq falına çıxmaq, qapılara kisə və papaq atmaq bu bayramın tərkib hissələridir. Küsülüləri barışdırmaq, xəstələrə baş çəkmək, körpələrə yeni libas almaq da bu bayrama aid xüsusiyyətlərdəndir. Torpaq Çərşənbəsinə həm də Niyyət, Dilək Çərşənbəsi deyilir. İnanca görə, həmin gün ürəkdə tutulan xoş diləklərin hamısı hasil olur. Həmin gün mütləq xoş sözlər danışılmalıdır. Axı kimsə qulaq falına çıxıb, qapıya gələ bilər. Çərşənbə axşamı ailədə könül açan sözlər danışar, dava-dalaş etməzlər ki, qulaq falına çıxan şəxs xoşagəlməz ifadələr eşitməsin və evlərinə şən əhval-ruhiyyə ilə qayıtsın. Süfrənin əsas bəzəyi al-əlvan boyadılmış şadlıq rəmzi olan yumurta bir də baharın gəlişini əks etdirən Səmənidir.

Novruz bayramı azərbaycanlıları Vətənə, ata-baba yurdları Azərbaycana, milli köklərə daha sıx bağlayır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi dəyərlər, mütərəqqi adət-ənənələr cəmiyyətdə daha möhkəm əsaslarla intişar tapır, bu sıradan da xalqın milli bayramı olan Novruz yüksək səviyyədə qeyd edilir.

Baharın gəlişini müjdələyən, xalqımızın qədim tarixə malik milli bayramı olan Novruzun Son Çərşənbəsi - "İlaxır Çərşənbə" bu gün böyük ruh yüksəkliyi ilə qarşılanır.

***Zümrüd BAYRAMOVA***

# YAP Suraxanı rayon təşkilatı şəhid ailələri ilə görüşlərini davam etdirir



YAP Suraxanı rayon təşkilatının rəhbərliyi və əməkdaşları Vətən Müharibəsi qazisi Əkbərov Elnur İmamverdi oğlunun, şəhid Fərzullazadə Mehdi Zaman oğlunun və şəhid Hüseynov Orxan Bəhman oğlunun ailələrini ziyarət etmişlər.



Təşkilat sədri Vüqar Seyidov görüş zamanı bildirmişdir ki, bütün şəhidlərimizin əziz xatirəsi hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaqdır. Dövlət başçımızın şəhid ailələrinin sosial qayğılarına göstərdiyi böyük diqqət bizlər üçün də nümunə təşkil edir. Tək təsəllimiz şəhidlərin qanlarının yerdə qalmaması və torpaqlarımızın işğaldan azad olunmasıdır. Göstərilən diqqət və qayğıya görə şəhidlərimizin valideynləri və qazimiz ailə üzvləri adından öz minnətdarlıqlarını bildirmişlər.

***Zümrüd Bayramova***

# "France Inter" radiosunda Qarabağla bağlı veriliş yayımlanıb

"France Inter" radiosunun "85-ci epizod" proqramında "Dağlıq Qarabağ: parçalanmış həyatlar, itirilmiş zaman" adlı veriliş yayımlanıb.




AZƏRTAC xəbər verir ki, verilişdə Ağdamdan məcburi köçkün Elşən 1993-cü ildə 6 yaşında olarkən Ermənistan silahlı qüvvələri tərəfindən rayonun Boyəhmədli kəndindən didərgin salınmalarından danışıb. O, kəndləri və evləri haqqında xatirələrinin valideynlərinin, baba və nənəsinin danışıqlarından ibarət olduğunu qeyd edib. Elşən evlərini tərk etmələrindən, kiçik bacısının ölümündən, həmin qorxulu gündə müvəqqəti məktəb binasında sığınacaq tapmalarından, sonra Mingəçevirdəki köçkün düşərgəsində məskunlaşmalarından söz açıb. Atasına "Niyə Mingəçevirdə ev tikmirik" sualı verən Elşən bir cavab alırmış: "Tezliklə Qarabağa, evimizə qayıdacağıq".

Bildirilir ki, Azərbaycan Ordusunun qələbəsindən sonra indi Elşən tezliklə doğma evlərinə qayıtmağı gözləyir. Qeyd edilib ki, Strasburq Siyasi Elmlər İnstitutunda təhsil alan Elşən Lyonda elmi tədqiqatlarını davam etdirib. Sonra doğma Vətəninə qayıdıb və hazırda Bakıda ailəsi ilə birlikdə yaşayır.

# Tavalardakı gizli təhlükə! Bir çox xəstəliyə səbəb olur...

**Tavalardakı gizli təhlükə bir çox xəstəliyə səbəb olur. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, sənaye məhsullarındakı kimyəvi maddələrin insan sağlamlığına mənfi təsir etdiyini qeyd edən endokrinoloji və metabolik xəstəliklər mütəxəssisi dos.dr. Mahmut Muzaffer İlhan xüsusilə, tavalarda tapılan PTFE materiala münasibət bildirib. O, bu maddənin insanlarda olan tiroid və reproduktiv funksiyalarına zərər verə biləcəyini deyib.**

Son zamanlarda endokrin hormon sistemınə təsir edən və müxtəlif kimyəvi maddələrin alınmağa başladığını qeyd edən endokrinoloji və metabolik xəstəliklər mütəxəssisi dos.dr. Mahmut Muzaffer İlhan, tefal qablarında tapılan PTFE-nin orqanizmə qida və tənəffüs yolları ilə girdiyini, tiroid xərçənginə səbəb olduğunu bildirib. Dosent bu maddələrin heyvanlarda tiroid düyünlərinin meydana gəlməsini artırmaq üçün olduğunu da əlavə edib. Kimyəvi maddələrin təkcə tefal tavalarda deyil, mətbəx qablarından mebelə qədər bir çox əşyada istifadə edildiyini vurğulayan doktor bu məhsulların istifadəsi mövzusunda diqqətli olmağın lazım olduğunu deyib.

## Bədənə tənəffüs və qidalanma yolu ilə daxil olur

Bədənin bir çox toxumasında yığılan zərərli maddələrin mənfi təsirlərini izah edən dos. dr. "hormonlar əslində vücudumuza mesaj verən molekullarıdır və iki hüceyrə arasında əlaqə qururlar. Müxtəlif xüsusi növlər mövcuddur. Bunlara hipofiz, tiroid bezləri, pankreas bezi və reproduktiv orqanları daxildir.



Əlbətdə ki, son zamanlarda sənayeləşmiş cəmiyyətlə birlikdə endokrin hormon sisteminə təsir edən müxtəlif kimyəvi maddələr ortaya çıxıb. Onlara endokrin inhibitorları deyirik və sənaye məhsulları arasında tez-tez qarşımıza çıxır. Mətbəxdəki yemək qablarından tefal kimi tavalara, mebeldən xalça və boyalara qədər bu maddələr təmas, tənəffüs və yemək yolu ilə bədənimizə daxil olur. Bunlar müxtəlif toxumalarda da toplana bilər. "Bu yığılmış toxumaların başında endokrin və reproduktiv sistem dayanır"-deyə, o söyləyib.

Bəzi siniflərdə endokrinin siyahıya alınmasının mümkün olduğunu söyləyən dos. dr.İlhan, "məsələn, BPA dediyimiz bisfenol maddəsi ya da pestisid kimi bilinən ftalat, perflora karbonları, pestisidlər plastiklərdə ən əhəmiyyətli qruplardandır. Bunlar arasında xüsusilə tefal kimi tavalarda istifadə olunan və PTFE və PFOA adlanan bir qrup perflura karbonu var. Tefal tavalarda bunun xüsusilə seçilməsinin səbəbi həm istiliyə davamlılığı, həm də boyanma asanlığıdır. Ancaq, bu maddələr istifadə edilərkən, müxtəlif yollarla, xüsusilə də qida yolu ilə bədənə daxil olur və toxumalarda yığılır. "Dos. dr. Mahmut Muzaffer İlhan sözlərinə davam edərək: "PTFE adlanan material yalnız tefal kimi qablarda tapılmır, xalçalardan ləkə davamlı parçalara, mətbəx saxlama qablarından tibbi cihazlara qədər bir çox əşyada olur. Bu materiallardan hətta orada da istifadə olunur" dedi.

## Xüsusilə tiroid bezlərində yığılır

Kimyəvi maddələrin ən çox yığıldığı tiroid bezlərini xüsusilə qeyd edən dos. dr. İlhan: "Araşdırmalar bu maddələrin təbiətdə təkrar emal yolu ilə əmələ gəldiyini və qida mənbələrində yığıla biləcəyini, dəfələrlə insan bədəninə daxil olacağını göstərib. Hər şeydən əvvəl qaraciyərdə, böyrəkdə və xüsusən tiroid bezlərində yığılma müşahidə olunur. Son illərdə tiroid, həqiqətən PTFE dediyimiz və PFOA maddələrin yığılması ilə ən çox öyrənilən orqanlardandır. Əlbətdə ki, heyvanlarda aparılan tədqiqatlar bu mövzuda daha çoxdur. Heyvanlarda bu maddələrin toxumalarda yığılması ilə tiroid düyünlərində artım aşkar edilib. İnsanlara baxdığımızda tiroid xərçəngi və düyünlər üzərində daha çox araşdırmaya ehtiyac olduğunu görürük. Xüsusilə tiroid və hormonları araşdırarkən bunun tiroid hormonlarında azalma və tiroid tənbəlliyinə səbəb ola biləcəyini göstərir. Bu vəziyyət qadınlarda və kişilərdə (uşaqlarda) daha çox olduğu müşahidə edilib".

***Ayşən Sadıxzadə***

# Qarabağ azadlığa çıxdı, Əli Kərimli isə hələ də öz xislətinin məhbusudur

**"Dağlıq Qarabağ münaqişəsi artıq tarixdə qaldı, həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq və bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik". Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 44 günlük Vətən müharibəsində müzəffər qalibiyyətindən sonra hər çıxışında, hər müsahibəsində səsləndirdiyi bu fikirlər artıq bütün dünyada qəbul edilir və dövlət başçıları səviyyəsində təsdiqlənir. Yəni Azərbaycanın ərazi bütövlüyü artıq təmin edilib və bundan sonra bir qarış torpaq belə düşmənə güzəştə gedilməyəcək...**

Lakin Azərbaycanda siyasətdən kənar qalan bəzi siyasi qüvvələr - əslində, qüvvə də deyillər, şəxsdirlər - konkret desək, AXCP sədri Əli Kərimli və onun məhdud tərəfdarları hələ də 44 günlük şanlı Vətən müharibəsini gözdən salmağa və Azərbaycanın ərazi bütövlüyünə şübhə ilə yanaşmağa davam edirlər. Necə deyərlər, hər zamankı xain xislətləri bu dəfə də özünü ən qabarıq formada göstərməkdədir.

Şəxsini müxalifətin "lideri", Prezident İlham Əliyevin siyasi rəqibi sayan və yaxud sanan Əli Kərimli müharibə günlərində ağzına su alıb oturdu, susdu, danışa bilmədi, Azərbaycanın hər gün öz kəndlərini, rayonlarını sürətlə işğaldan azad etməsinin şokunu yaşadı. Müharibə zəfərlə bitdi və yavaş-yavaş Əli Kərimli də şokdan ayıldı. Bəli, soruşa bilərsiniz ki, bəs, niyə şoka düşmüşdü? Çünki vaxtilə özünün də bulunduğu siyasi hakimiyyətin Ermənistana uduzduğu torpaqların nə vaxtsa azad ediləcəyini nəinki düşünürdü, heç təsəvvür də etmirdi. Azərbaycan iqtidarının və Azərbaycan Ordusunun birdən-birə, gözlənilmədən etdiyi belə bir əks-həmlə Kərimlini şoka soxmasın, nə etsin...



İllərdir Qarabağı Azərbaycan iqtidarına baş qaxıncı eləmişdi, Azərbaycanı müharibəyə başlamamaqda, hətta müharibədən qorxmaqda ittiham edirdi. Beləcə, 30 il keçdi, Qarabağ azadlığa çıxdı, Əli Kərimli isə hələ də öz xislətinin məhbusudur. Məhbusluq həyatı ətrafa açıq gözlə baxmaqda ona əngəl olub. Ona görə də hərdən işıq gələn "pəncərəyə" (Facebook - müəl) dırmaşıb səsi yetdikcə çığırır. Amma ətrafında olan üçbeş nəfərdən başqa onu eşidən olmur. Çünki bu səs 30 ilə yaxındır ki, eyni tonla eyni məqsəd və eyni xislətə xidmət edir, inam və etimad göstəricisi sıfırın altındadır.

Onun budəfəki hikkəsinə məhz dövlət başçısının "Dağlıq Qarabağ münaqişəsi artıq tarixdə qalıb" sözlərini dəfələrlə təkrarlaması səbəb olub. Nədənsə, bu ifadə Əli Kərimlini yaman qıcıqlandırır. İddia edir ki, münaqişə bitməyib.

Görünür, adam bölgədəki prosesi və Prezident İlham Əliyevin bununla bağlı qəti mövqeyini gözardı edir. İlham Əliyev bu vaxta qədər nə deyirdi, hamısını edib. Deyirdi ki, biz nəyin bahasına olur-olsun, torpaqlarımızı işğaldan azad edəcəyik və etdik. İndi də dövlət başçısı deyir ki, Qarabağ münaqişəsi tarixdə qalıb, deməli belədir. Müəyyən məsələlər isə zamanla öz həllini tapacaq...

Gəlin, fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında səsləndirdiyi bir fikrə diqqət edək: "Biz bir məsələni də unutmamalıyıq ki, 10 noyabrdan sonra bizim bölgəmizdə və bütövlükdə dünyada tam yeni bir vəziyyət yaranıb. Biz bu vəziyyətə uyğunlaşmalıyıq, hər bir ölkə buna öyrəşməlidir. Bu, yeni bir vəziyyətdir, bizim üçün də, qonşu ölkələr üçün də. Burada həm logistik, həm texniki, həm nəqliyyat, eyni zamanda, psixoloji problemlər var. Bəzilərinin gözləntiləri həddindən artıq çoxdur. Amma hər şeyin öz vaxtı var, öz yeri var. Biz addım-addım öz hədəfimizə çata bilmişik və mümkün olmayanı 44 gün ərzində reallığa çevirmişik. Bunu bu gün təkcə biz yox, beynəlxalq ekspertlər də deyir. Bizim apardığımız hərbi əməliyyat bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Hesab edirəm ki, biz müharibə dövründə və müharibədən sonra mümkün olan maksimum nəticəni əldə etdik və həyat davam edir, həyat yerində durmur, yeni məsələlər ortalığa çıxır.

Bizim strateji baxışımız var: Biz nə istəyirik, bu günə qədər nə istəmişik, bundan sonra nə istəyirik. Bu arzulara, hədəflərə çatmaq üçün nə etməliyik? Bizdə çox aydın baxış və təsəvvür var. Biz bu ümumi plan çərçivəsində bundan sonra da öz addımlarımızı atacağıq və yeni nailiyyətlər, uğurlar da olacaqdır".

Odur ki, Əli Kərimli, bir azca da döz. Döz ki, Azərbaycanın bundan sonrakı nailiyyətləri səni şoka salmasın. Növbəti şokdan ayılmamaq kimi bir ehtimal da var...
//Trend.az

# Erməni ordusunun "qığırdaq toxuması"

***Ermənilər hələ də "məğlubedilməz" erməni ordusunun onurğa sütununun Paşinyan tərəfindən necə qırıldığı barədə baş sındırırlar. Axı bu, necə ola bilərdi? Uzun illərin sınağından "uğurla" çıxmış bir ordu, özü də elə belə yox a..., erməni ordusu.***

Məncə, burada erməni ordusu ilə bağlı xırdaçılıq etməyə dəyməz, çünki ermənilərin özləri özlərindən elə "qəhrəman" yaratmışdılar ki, bunun son aqibəti də göz önündədir. Nə isə...SİA erməni mənbələrinə istinad edir.

Bilirsiniz, bu gün ermənilərə yer eləyən nədir? Nikolun erməni ordusundakı onurğa sütununu qıra-qıra daha da yuxarılara getməsi. Eşitmiş olarsız, dünən baş nazir Baş Qərargah rəisi Onik Qasparyanın da "xoruzunu verib qoltuğuna". Özü də deyib ki, get o yanda banlad. Əslində, mən bu Paşinyanda elə də bir günah görmürəm. Çünki dövlətdə hamı öz yerini bilməlidir. Özü də bu, elə bir dövlət deyil a..., bu Ermənistandır. Dünyanın əksər ölkələrini öz "qəmzəli nazıyla" oynatdığı Ermənistan...

Buna görə də, Onik Qasparyanın dünən dediyim kimi, küyə düşüb, Nikola istefa təklif göndərməsi, onun özünün istefaya göndərilməsi ilə sonuclanıb. Təbii ki, burada Oniki də qınamaq olmaz, düşünüb ki, sabah Paşinyanın yerinə gələn bir başqası sonradan onu Nikola qarşı "passiv"likdə ittiham edə bilər. İndi bu yazıq nə bilsin ki, Nikol da hələm-hələm gedənə oxşamır.

Məsələ bundadır ki, Qasparyan baş nazirin istefasını tələb etdiyi ilk açıqlamanı verəndə bu tələbin erməni müxalifətinə "böyük təkan" verəcəyinə ümid edirdi. Amma sən demə, bütün bunlar yanlışmış. İndi ermənilər Qasparyanın istefaya göndərilməsini Ermənistandakı qanunların işləmədiyi ilə əlaqələndirirlər. Onlar burada elə bil, nəsə, yeni bir şey kəşf ediblər.







Bilirsiniz burada mənim üçün maraqlısı nədir? Ermənistandakı qanun işləməməsinin məhz "Ermənistanın Helsinki Təşəbbüsü" təşkilatının rəhbəri Avetik İşxanyan tərəfindən bəyan edilməsi. Mənə elə gəlir ki, burada "yalan" hay-həşir salmaqda İşxanyanın da öz məqsədi var. Çünki o, Paşinyanı yıxandan sonra, hakimiyyətə Vazgen Manukyanın gələcəyinə əmindir. Bəs, Manukyan kimdir, Avetik İşxanyanın bacısının əri. Bax, mən deyəndə, Siz inanmaq istəmirdiniz. "Ermənistanın Helsinki Təşəbbüsü" təşkilatının rəhbəri quru maaşa qulluq edən bir adamdır. Avetik İşxanyan hansı ermənidən əskikdir, o nə vaxta qədər qəpik-quruşla dolanmalıdır?

Bəyəm, o Ermənistanda qrant oğurlayıb yeyən ermənilərdən ondan artıqdır?

Yaxınlarda Ermənistanda hakimiyyət başına keçən Vazgen Manukyan, təbii ki, qaynına da görümbaxım eləyər(?). Deyəsən axı, artıq Manukyan da yavaş-yavaş "arxalı" olduğunu anlamağa başlayır. Belə ki, ötən gün İşxanyanı da arxasında görən Vazgen artıq Paşinyanı həbs etdirə bilməsi ilə "xox" gəlib. Amma belə görünür ki, Paşinyanın Artak Davtyanı Baş Qərargaha rəisi təyin etmək istəyi, hakimiyyət dəyişikliyi məsələsini konstitusiya yolu ilə həll etmək üçün hazırlanmış manipulyasiya həddini tükəndirir. Ermənilər burada da Paşinyanın ölkə Konstitusiyasının müddəalarını pozmaqda "ittiham edirlər". Onlar xain Nikol Paşinyanın bu gün Ermənistanda olanqalan erməni həbçilərini də ölkəni tərk edəcəyini bildirirlər. Ermənilər baş nazir, müdafiə naziri və generalların iştirakı ilə telekanallar tərəfindən xalqa göstərilən görüşləri yalnız cəmiyyəti sakitləşdirmək üçün bir mənzərə olduğunu iddia edirlər.

...Sizi bilmirəm, amma mən erməni ordusunun "onurğa sütunu"nun qırıldığına inanıram. Əslində isə, ermənilərin "onurğa sütunu" kimi təqdim etdikləri, heç "qığırdaq toxuması" də deyildi. Ona görə də, bunu təkcə Nikolun adına yazmaq doğru deyil.

***Ağasəf Babayev***




## Şəxsiyyət vəsiqələri ilə bağlı yenilik

Yeni nəsil şəxsiyyət vəsiqələrinin elektron çipinə daxil edilən elektron imza sertifikatlarının aktivləşdirilməsinin ödənişsiz təşkili üçün layihə hazırlanıb. SİA-nın məlumatına görə, bu, Nazirlər Kabinetinin 2020-ci il üzrə hesabatında qeyd edilib. Hesabatda qeyd edilib ki, məqsəd elektron xidmətlərdən istifadənin kütləviləşdirilməsidir.

Yeni nəsil şəxsiyyət vəsiqələrinin elektron çipinə daxil edilən elektron imza sertifikatlarının aktivləşdirilməsinin ödənişsiz təşkili Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "Azərbaycan Respubvlikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanunun tətbiqi barədə Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Prezidentinin fərman layihəsi hazırlanıb. Hazırda layihənin razılaşdırılması üçün işlər davam etdirilir.

## Azərbaycanda yaşa görə pensiya alanların sayı 710 min nəfəri ötüb

Mart ayının 1-i tarixinə olan məlumata əsasən, yaşa görə pensiya alanların ümumi sayı 710 min nəfərdən yuxarıdır. Bu barədə SİA-ya Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib. Bildirilib ki, onların 60 faizini qadınlar, 40 faizini isə kişilər təşkil edir.

# YAP Şəmkir rayon təşkilatı "Şəhid ailələrinə qayğı" aksiyasını davam etdirir

**Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının nümayəndələri Şəmkir rayonunun Çinarlı qəsəbəsi, Dəllər-Cırdaxan, Qaranüy, Dəllər-Cəyir, Dəllər - Daşbulaq kəndlərində şəhid ailələrinin üzvlərini və Vətən müharibəsi qazilərini ziyarət ediblər.**



Görüşlər zamanı YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev bildirib ki, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə hər zaman diqqət və qayğı göstərilir. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq Şəmkir rayonunda da şəhid və qazi ailələri mütəmadi olaraq ziyarət olunur, mövcud problemlərinin aradan qaldırılması üçün tədbirlər həyata keçirilir.

Rayon təşkilatının nümayəndələri ziyarətlər zamanı ailələrə başsağlığı verib, şəhidlərə rəhmət diləyib, ailələrin qayğıları, problemləri ilə maraqlanıb və həlli istiqamətində mümkün tədbirlərin görülməsi üçün aidiyyatı təşkilatlar qarşısında məsələ qaldırılacağını bildiriblər. Şəhid ailələrinin üzvləri və qazilərimiz onlara göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə təşəkkürlərini bildiriblər. Görüşlər zamanı şəhid ailələrinə, qazilərə rayon təşkilatı tərəfindən maddi yardım və ərzaq yardımı göstərilib.

*Rəfiqə*

# Mədəni sərvətlər xəzinəsində yeri olan düha: Nizami Gəncəvi- 880

**Müasir dövrümüzdə Azərbaycanda bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği ilə bağlı möhtəşəm layihələr reallaşır. Bu layihələrə dövlət dəstəyinin olması milli dəyərlərimizin daha geniş bir şəkildə təbliğinə meydan verir. Zidiyyətlərlə zəngin iyirmi birinci yüzillikdə Azərbaycan ənənələrinə sadiq qalaraq milli mənəvi dəyərlərə önəm verərək islamofobiya, islam adından sui-istifadə edərək qırğınlar törədənlərə malik olduğu dəyərləri ilə çağırışlar edərək onları sülhə, dostluğa dəvət edir. Azərbaycanın tarixi ənənələrə sahib olması onun belə dəyərlər sisteminin formalaşmasına səbəb olub.**



Yüzilliklər əvvəl Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarının yaradıcılığından aşılanan əxlaq, mənəvi ucalıq, fəlsəfi fikirlər, bədii-estetik görüşlər bu xalqın təməlinin möhkəm dəyərlərə bağlılığını təsdiq edir. Zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmiş böyük ustadlar dərin fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmişlər. Ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatının belə sayseçmə simaları kifayət qədərdir ki, dövlətimiz tərəfindən yaradıcılq nümunələri gənc nəslə aşılanır, dünya miqyasında layiqli şəkildə təbliğ edilir. Təbii ki, mədəniyyəti geniş məkana çıxarmaq, təqdim və təbliğ etmək üçün xalqın böyük sənət nümunəsi, zəngin irsinin olması vacibdir. Xalqımızın əsrlərdən səsi eşidilən Füzuli, Nəsimi, Xətai kimi onlarla böyük şairi, mütəfəkkiri var ki, onların hər biri ilə qürulanırıq və dünya bu kimi yaradıcı insanların sənət dünyasından bəhrələnirlər.

Azərbaycan Prezident Cənab İlham Əliyev sərəncamları ilə böyük sənətkarların yubiley tədbirlərin keçirilməsi sənətə, mədəniyyətimizə olan ehtiramdır. 2021ci ilin "Nizami Gəncəvi İli" elan olunması bunun daha bir parlaq nümunəsidir. Nizami kimi klassiklərimizin söz dünyasından bəhrələnmək böyük bir xəzinəyə sahib olmaq deməkdir. Onun fikir dünyasından süzülüb gələn hər bir incidə böyük bir eşq, fəlsəfi fikir var. Yaradıcılıq dünyasından insan bütün dəyərləri əxz edə bilir: böyüklük, sədaqət, alicənablıq, əməyə məhəbbət, övlad-valideyn münasibəti və s. Ən kiçik bir dəyərdən ən ali dəyərə qədər insana ucalıq gətirir. Yaradıcılığının əsas ideya və mövzusunu ədalət və əmək mövzusu, dövrün mühüm ictimai-siyasi və əxlaqi məsələləri təşkil edir. Şair ədalət və əmək haqqında fikirlərə, həqiqi dostluq kimi əxlaqi məsələlərə xüsusi ilə önəm verir. "Sirlər Xəzinəsi"ndə ədalət, əmək və əxlaq kimi dəyərləri qabardaraq, insan üçün ən gözəl zinət olduğunu göstərir. İctimai-siyasi hadisələri fəlsəfi və bədii lövhələrlə işıqlandıran şair elmi-fəlsəfi məzmunlu əsərləri ilə yüksək intelektə, düşüncəyə sahib olduğunu göstərir. Qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığı bəşər mədəniyyətinin ən gözəl nümunələridir.

Təbii ki, Azərbaycan xalqına məxsus olan tolerantlıq, multikultural dəyərlər yüzillikləri özündə ehtiva etdiyindən Nizami Gəncəvi yaradıcılığında da buna rast gəlinir. Nizami Gəncəvi fəlsəfi düşüncəsinin təzahürü olan əsərlərində multikultural dəyərlərə təsadüf olunur. Belə ki, "Xəmsə" yə daxil olan "Yeddi gözəl" poemasında multikultural dəyərlər öz əksini tapır. Əsər müxtəlif xalqlara məxsus olan yeddi gözəlin hekayələrindən ibarətdir. Yeddi iqlimin yeddi gözəlini vəsf edən bu əsər təkcə milli ədəbiyyatımızın deyil, eləcə də bəşər ədəbiyyatının nadir nümunələrindəndir. Nizami Gəncəvinin "Yeddi gözəl" poeması xalqlar arasında qarşılıqlı anlaşmanın hər zaman olduğunu bir daha göstərmiş olur. Bu ideyalar və fikirlər dünya mədəniyyətinin ən parlaq nümunələrindəndir. Əsərdə Çin qızının, Slavyan gözəlinin, Rum qızının, Hind, Xarəzm, Məğrib gözəlinin dilindən deyilmiş hekayətlər də ayrı-ayrı xalqların taleyinin ən maraqlı anları, ibrətamiz hadisələri təqdim olunur. Nizami Gəncəvinin "Yeddi gözəl" poeması multikultural dəyərlərin insanın və cəmiyyətin mənəvi zənginliyindəki rolunu, yerini və əhəmiyyətini parlaq şəkildə nümayiş etdirir. Müəllif milli mənsubiyyətindən və dini inancından asılı olmayaraq bəşər övladına səmimi münasibətini ifadə etmişdir.

Multikulturalizm dəyərləri olmayan məkanda, ayrı-seçkilik, islamofobiya, ksenofobiya, antisemitizm kimi təhlükəli amillər yaranır ki, bu da bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə gətirib çıxara bilir. Nizami Gəncəvi yaradıcılığındakı bu dəyərlər bir daha göstərmiş olur ki, Azərbaycan xalqı digər xalqlara qarşı həmişə tolerantlıq göstərib və bu gün də bu ənənə qorunub-saxlanılır.

Azərbaycan əsrlərdir fərqli din və mədəniyyətlərin qovuşuğunda yerləşir, ölkədə tarix boyu tolerantlıq və multikulturalizm mövcud olub, müxtəlif etnik qrupların və dinlərin nümayəndələri burada sülh şəraitində birgə yaşayıblar. Terrorizmin baş alıb getdiyi dünyada, İslama qarşı hücumların olduğu zamanda Azərbaycan dövləti, xalqı bu dəyərlərə diqqət ayıraraq, xalqlar, millətlər arasında qarşılıqlı anlaşmanın olmasına önəm verib. Azərbaycandakı tolerantlıq ənənələrindən bəhrələnməli, dünyanı buxovlayan qərəzli çıxışlara qarşı birgə iradə nümayiş etdirməlidirlər. Belə ki, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

*Zümrüd BAYRAMOVA*

# "Pandemiya dövründə ailədə stres ona görə yaranıb ki..."



*Psixoloq, konfliktoloq Camilə Hacıyevanın SİA-ya müsahibəsini təqdim edirik:*

*- Bu gün ailə möhkəmliyini saxlayan dəyərlər unudulubmu?*

- Ümumiyyətlə, ailənin möhkəmliyi iki fərdi xarakterə sahib insanın davranış düşüncə və xarakterindən asılıdır. Çünki ailə dedikdə, iki fərqli və fərdi şəxs gözümüzün qarşısına gəlir. Yəni, bu iki fərqli xasiyyətə, yaşam tərzinə, düşüncəyə malik insanların bir araya gəlməsi nəticəsində ailənin bünövrəsi qoyulur və yeni bir ailə strukturu formalaşır. Təbii ki, iki insan arasında anlaşılmazlıqlar ola bilər. Lakin bu anlaşılmazlıq dərin nüanslara gedib çatırsa, bu zaman danışaraq problemləri həll etmək yoluna fokslanmalıdırlar. Əgər özləri bu problemlərin öhdəsindən gələ bilmirlərsə, məsləhət görərdim ki, bir ailə psixoloqundan məsləhət alsınlar. Təbii ki, effektiv nəticə göstərəcək. Çünki ailələr əgər özləri öz problemlərinin həllində çətinlik çəkirlərsə, bu zaman ailə psixoloqları onlara öz mənəvi dəstəyini verəcək. Fikrimcə, ailələrdə bu düşüncə var ki, mən niyə ailə psixoloquna müraciət edim? Çalışırlar ki, ailədaxili münaqişələri ilə bağlı problemlərini öz ailələri içərisində həll etsinlər. Ailə müdaxiləsi olduqca konfliktlər, anlaşılmazlıqlar daha da böyüməyə başlayır. Ailə psixoloqunun fərqi bundan ibarətdir ki, məsələyə olduğu kimi yanaşmaq və iki insanı qınamadan, mühakimə etmədən, dinləyib dediklərindən nəticə çıxaran şəxsdir və münaqişənin həlli yolunda fikirlər irəli sürən mütəxəssisdir. Bu, onlar üçün çox faydalı olacaq və ailənin dağılmasının qarşısını alacaq.

*- Nəyə görə ailələr artıq uzun ömürlü olmur?*

- Təbii ki, bu məsələnin arxasında çox səbəblər dayanıb. Ailə qurmadan öncə sevgili, nişanlı olan müddətdə bu iki insan bir-birlərini yaxşı tanımağa üstünlük vermirlər və ya bir-birlərini olduğu kimi təqdim etmirlər. Artıq iki fərd bir-birlərini olduğu kimi təqdim etmədiyi təqdirdə ailə quran zaman bu "məni" gizlədə bilmirlər və bu zaman iki insan arasında problemlər, münaqişələr yaranır. Hətta bu prosesi cütlüklər belə ifadə edirlər ki, "evlilikdən sonra dəyişib mən onu belə tanımamışam". Bu da ailədə çaxnaşmalara səbəb olur.

*- Boşanan cütlüklər ortaq qərara gəlmir?*

- Bu sualı açıqlayarkən bildirmək istəyirəm ki, onlar ailədə münaqişələr olduğu zaman o münaqişəni dalaşaraq deyil əksinə danışaraq həllinə fokslanırlarmı? Yəni ailədə belə bir problem varsa müzakirə edilirmi? İki tərəf də problemin həllinə cəhd göstərirmi? Məhz fikrimcə ən önəmli fakt budur. Əgər bir ağacın kökü yoxdursa, o heç vaxt böyüyüb budaqlana bilməz. Biz problemin nədən qaynaqlandığını tapırıq. Biz ağacın kökünü və problemin qaynağını tapırıq. Çox ailələrlə işləyən bir psixoloq olaraq söyləyə bilərəm ki, öndən gələn fikir budaqdır. Biz onun kökünü axtarmalıyıq ki, dərinliklərdə nə gizlənir. Düşünürəm ki, insanların ailə psixoloquna müraciət etməsi onların həyatına çox müsbət təsir edəcək. Bu halda məsələ boşanmaya qədər uzanmayacaq və böyüməyəcək.

*- Boşanan cütlüklər niyə ortaq qərara gəlməyib düşmən kimi ayrılırlar? Pandemiya dövründə boşanmaların sayının artmasının səbəbi nədir?*

- Pandemiya dövründə insanların işlərinin müvəqqəti olaraq dayanması, maddi sıxıntı çəkməsi, xəstələnmək qorxusu, evə qapanma isə özündə gərginlik stress yaradıb ki, bu problem də ən birinci ailələrə təsir edib. Pandemiya dövründə ailədə problemlərin olması bizə göstərir ki, əslində, bu problemlər əvvəlcədən olub, lakin pandemiya dövrü bu problemi aşkara çıxarıb. Bu səbəblər və buna əlavə olaraq pandemiyanın gətirdiyi mənfiliklər ailədə boşanmaya gətirib çıxarır. Azərbaycanda ailə psixoloquna getmək yaxşı qarşılanmır, lakin son dövrlərdə bu fikir dəyişib.

*- Boşanma zamanı depressiyaya düşən insanlar nə etməlidir ki, bu müddətin öhdəsindən asanlıqla gələ bilsinlər ?*

- Ümumiyyətlə vurğulamalıyam ki, boşanma prosesi asan bir müddət deyil və müəyyən müddət boşanan insanlarda kədər stress və ya əsəbi hallar müşahidə edilə bilər. Bunun səbəbi isə ailəyə verilən əmək və zamandır. Lakin şəxsdə mənəvi boşluq, depressiya varsa bu zaman o yaşadığı situasiyanı qəbul etməyi bacarmalıdır. O dərk etməlidir ki, artıq boşanıb və bu hər iki şəxs üçün doğru seçimdir və bu bir qərardır. İnsan öz-özünə deməlidir ki "mən bu hadisəni yaşadım və qəbul etməliyəm". Pandemiya dövründə ailədə problemlərin olması bizə göstərir ki, əslində bu problemlər əvvəlcədən olub, lakin pandemiya dövrü bu problemi aşkara çıxarıb. Bu səbəblər və buna əlavə olaraq pandemiyanın gətirdiyi mənfiliklər ailədə boşanmaya gətirib çıxarır. Fikrimcə, ailələr stresli, gərgin anlarda qərar verməyə tələsməsinlər.

*Qönçə Quliyeva*

# Tələt Paşanı qətlə yetirən Teyleryan: qorxaq terrorçu





**100 il öncə - 1921-ci ilin 15 mart tarixində erməni daşnakı Soqomon Teyleryan Almaniyanın paytaxtı Berlində Türk Dünyasının böyük oğlu, Türkiyə xarici işlər naziri Tələt Paşaya qarşı vəhşi terror aktı həyata keçirərək onu qorxaqcasına - kürəyindən açdığı atəşlə qətlə yetirib. Guya ailəsinin qondarma "erməni soyqırımının" dırnaqrarası qurbanları olduğunu "əsas" gətirən Teyleryan elə həmin il keçirilən məhkəmədə şübhəli qərarla bəraət hökmü almışdı.**





Qeyd edək ki, Tələt Paşanın qətlə yetirilməsi "erməni genosidi" bəhanəsi ilə atılan ilk addım idi. Terror əməliyyatının adı isə "Namezis" idi. Belə ki, terrorun həyata keçirilməsinin əsas təşəbbüskarları Armen Qaro və Şaqan Natali olublar.

Onu da xatırladaq ki, 25 iyul 1922-ci ildə erməni terrorçuları tərəfindən Tiflisdə öldürülən Osmanlı dövlətinin keçmiş hərbi donanma naziri Camal paşanın üstündə tapılan və oğluna ünvanladığı məktub Tələt paşanın öldürülməsinin və bu kimi digər qətllərin səbəbini izah edir: "Oğlum, növbə mənimdir... Tələt və Səid Həlim paşalardan və digər günahsız dostlarımdan sonra məni də öldürəcəklər. Cinayətin səbəbi isə həqiqəti danışmağıma mane olmaq istəyidir".

Bəs muzdlu vəkillərin keçici dəlilik və ruhi sarsıntı içərisində Tələt paşanı öldürdüyünü deyən və Berlin məhkəməsinin qalmaqallı şəkildə azadlığa buraxdığı Soqomon Teyleryan kim idi?

**1.Teyleryan yalançı idi.**

Məhkəmədə iddia etmişdi ki, bütün ailəsi - atası, anası, bacısı, üç qardaşı "erməni soyqırımı" zamanı gözləri qarşısında öldürülüb. Erməni tarixçiləri bu "faktı" tez-tez qabardırlar. Halbuki Teyleryan 1915-ci ildə həmin hadisələrin cərəyan etdiyi ərazidən çoxçox uzaqlarda idi. 28 iyun 1914-cü ildə Birinci Dünya müharibəsinə səbəb olan hadisənin - Avstriya-Macarıstan şahzadəsi Ferdinandın Sarayevoda güllələndiyi gün Teyleryan da Serbiyaya köçmüşdü. "İndependent" qəzetinin Orta Şərq müxbiri Robert Fiskin Teyleryanın oğlu ilə söhbətində ermənilərin həqiqət kimi sırıdıqları uydurmaların üstü açılır. "Atamın bacısı yox idi, iki qardaşı ilə birgə Serbiyada yaşayırdı".

**2.Teyleryan qatil idi.**

Məhkəmədə "mən bir adam öldürdüm, amma qatil deyiləm", - söyləməsinə rəğmən qatil idi. Tələt paşadan öncə, türklərə işlədiyi söylənilən Arutyun Mkrtıçyanı da məhz o qətlə yetirmişdi. Türk mənbələrində Soqomon Teyleryanın böyük qardaşı, hərbi həkim olan Vazgeni və onun arvadını türklərə xidmət etdiyini görə öldürdüyü də qeyd olunur.

**3.Teyleryan qorxaq idi.**

Tələt paşanı arxadan xaincəsinə vurmuşdu. Paşanı nə üçün arxadan vurdun, sualına belə cavab vermişdi: "Öldürmək üçün bir neçə dəfə qarşısına çıxmışdım. Amma elə bir baxışı var idi ki, silahımı çıxara bilmədim. Buna görə də arxadan vurdum".

Bu terrorçu ömrü boyu səksəkə içində yaşadı. Həyatının son illərində ermənilərin Amerika şəhərlərindəki tədbirlərində vətənpərvər çıxışlar etsə də, əsl həqiqətdə nə baş verdiyindən danışmağı sevməzdi. Övladı isə özünü atasının da iştirakçısı olduğu tarixdən uzaq tutmaq üçün adını dəyişib. Və bir də əsas və maraqdoğurucu fakt budur ki, onun oğlu, kiçik Teyleryan ermənilərin uydurduqları "soyqırım" əfsanəsinə inanmadığını da bəyan etmişdi. SİTAT: "Ermənilər fasiləsiz olaraq məzardan nələrisə çıxarmağa çalışırlar. Bunlar bir neçə qərinə öncə yaşandı. Tarixdə qaldı. Tərəflərin hər biri xeyli sayda insan öldürdü. İspan inkvizisiyasına və Roma imperiyasına geri dönüb, baş verənləri canlandıra bilməzsiniz. Bu, mənlik deyil".

Daha bir hiddətdoğurucu fakt budur ki, terrorçu Teyleryana Ermənistanda abidə qoyulub və bu abidənin özü açıq-aydın terroru və qeyri-insaniliyi təbliğ edir. Həmin abidədə Teyleryan əlində silahla dayanıb və ayağının altında guya Tələt Paşanın kəsilmiş başı var.

Sosial elmlər üzrə tədqiqatçı, professor Metin Yıldırım bununla bağlı bildirib ki, Tələt Paşanın qatilinin heykəlini bu şəkildə hazırlayan Ermənistan heç bir şey qazana bilməz. Ermənilər bu addımı atmaqla nə qədər qəddar olduqlarını və bəsit təfəkkürlə qərarlar qəbul etdiklərini ortaya qoyurlar. Onlar hesab edirlər ki, Tələt Paşa, Ənvər Paşa və Camal Paşa "İttihad və Tərəqqi" hərəkatını quraraq o zamanlar Anadolu topraqlarında yaşayan ermənilərin Suriyaya göndərilməsini əmr edən insanlardır. Ermənilər bu qərarı sürgün olaraq qiymətləndirsə də, əslində, belə deyil. Həmin vaxtlar ermənilərin xəyanətkar hərəkətlərini görən "İttihad və Tərəqqi" hərəkatının rəhbərliyi onları öz əsgərləri ilə birlikdə Suriyaya göndərir. Çünki ermənilər səhərlər özlərini dost mövqeyində göstərdikləri halda, axşamlar düşmən cəbhəsinə keçir və xəyanət edirdilər. Anadoludan kənarda yerləşdiyindən ermənilərin Suriyaya göndərilməsi əmri verilir. Azərbaycana gedən ermənilərin əksəriyyəti Anadoluda yaşayan ermənilər olub".

Onun sözlərinə görə, Daşnaksütyun köç sırasında ölən ermənilərin intiqamını almaq üçün "Nemesis" (yunan mifologiyasında intiqam mələyi deməkdir) əməliyyatı keçirirlər: "Nəticədə muzdlu qatil Soqomon Teyliryan Almaniyanın Berlin şəhərində Tələt Paşanı evindən çıxarkən güllə ilə qətlə yetirir. Polislər qatili həbs edir və Teyliryan "sürgün"də çox acılar çəkdiyini, hətta bacılarının da köç sırasında öldüyünü deyir. Ancaq sonradan onun söylədiklərinin tamamilə yalan olduğu ortaya çıxır. Belə ki, S.Teyliryanın oğlu 2015-ci ilə Almaniyada verdiyi müsahibə zamanı atasının "sürgün" zamanı Serbiyada olduğunu və bibisinin isə olmadığını açıqlayır".

Professor bildirib ki, bu heykəlin qoyulması Xocalıda ermənilərin törətdikləri soyqırımla eynidir: "Biz ermənilərin Xocalıda insanları nə qədər qəddarlıqla qətlə yetirdiklərini gördük. Fikrimcə, onlar öz uşaqlarını türklərə hiss etdikləri kin və nifrəti aşılamaq üçün belə bir yolu seçiblər. Bunu qismən də olsa həyata keçirə biliblər. Bizim istək və tələbimiz bu heykəlin tezliklə götürülməsidir. XXI əsrdə belə nifrət dolu heykəllərin yeri yoxdur. Ermənistan hökuməti səhvini başlayıb heykəli bir an öncə qaldırmalıdır".

İstanbul Universitetinin tarix müəllimi, professor Halil Bal isə deyib ki, bu, türkləri təhqir etmək üçün hazırlanmış bir abidədir və ən qısa zamanda götürülməsi zəruridir: "Dövlətimiz bu işə müdaxilə etməli və insanlığa sığmayan abidənin çox böyük səhv olduğunu görən hər kəs buna qarşı çıxmalıdır. Tələt Paşa Osmanlının baş naziri və ən müdrik dövlət xadimlərindən biri olub. O, Türkiyəni I Dünya müharibəsində və ən çətin zamanlarında mükəmməl şəkildə idarə edərək qoruyub saxlayıb. Bir qətilə abidə ucaltmaq, əslində, Ermənistan hökumətinin ən böyük səhvidir. Bu əməl onların gənclərinə də yaxşı örnək deyil. Başqa sözlə desək, bu, cinayətə haqq qazandırmaq və terrorizmi alqışlamaqdır. Onlar anlamalıdır ki, bu cür addımlar çıxış yolu deyil. Ermənilər qonşuluq münasibətlərinə və başqa ölkələrin tarixinə böyük hörmətsizlik edirlər. Ona görə də bu əməllərindən əl çəkməli lazımdır. Türk dövlətləri əl-ələ verib bu heykəlin götürülməsi üçün birlik nümayiş etdirməlidirlər. Yaxın keçmişdə ASALA terror təşkilatı 40-dan çox diplomatımızı qətlə yetirib. Dünya ədalətsizliyə göz yummamalı, terroru və kini yayan dövlətin layiqli cəzası verilməlidir".

***Rövşən RƏSULOV***

# Ermənilər Qafandakı mövqelərini tərk edirlər

*Tiqran Abramyan: "Əmrdə hərbçilərin silahsız və güllə darağı olmadan növbə çəkmələri tələb olunur"*



"Görün əsgərlərimiz Sünik (Zəngəzur) sərhədlərini hansı vəziyyətdə qoruyurlar! Hakimiyyət hansı, haraya baxır? Nəyə görə onlar bu cür şəraitdə postları qorumalıdırlar? Bu cür soyuqda çadırlarda yaşayacaqlar? Hansı ki, düşmən hər yerdə möhkəmlənir! Kimlər ki, hakimiyyətin hipnozundan hələ də ayılmayıbsa bütün bnlara baxın və nəticələr çıxrın! Artıq burada söhbət ordudan gedir, nəticə çıxarın ki, belə bir hakimiyyətdə bizim sonumuzdur! Ordu yoxdursa, dövlət də yoxdur!".

SİA xəbər verir ki, bu barədə erməni teleqram kanalları Zəngəzurda, daha dəqiq desək, Qafan yüksəkliklərinin birində çəkilmiş videomateriali yayaraq yazırlar. Videomaterialdan da göründüyü kimi, heç bir normal şəraitləri olmayan erməni hərbçiləri giley-güzar etməklə yanaşı, bütövlükdə erməni ordusunun çıxılmaz halda olduğunu deyirlər.

## Mövqenin konkret nömrəsi səslənir ki, bu da həmin yerin Qafanda olduğunu təsdiq edir

Məlumatla bağlı Ermənistanın "Enaket" analitik informasiya mərkəzinin rəhbəri Tiqran Abramyan feysbuk sosial şəbəkəsində yazıb ki, ordu rəhbərliyi hərbçilərdən həmin mövqeni tərk etməyi tapşırıblar və strateji mövqenin harada yerləşdiyi də videoda açıqlanır. Onun sözlərinə görə, bu kimi müvafiq dərclərin təhlükəli olması barədə çox danışmaq və mühakimə yürütmək olar.

"Birincisi, yeni reallıqlarda yeni müdafiə məntəqələri vacibdir və biz yeni cəbhə xəttinin necə olacağını, hansı texnika, bölmələr və yaşayış sahələri ilə təchiz olunduğunu təsəvvür etməliyik", yazan Abramyan davam edir: "İkincisi, aydın görünən budur ki, qısa zamanda müdafiə xəttini yaratmaq çətindir və bu da yaşayış problemini, xidmət aparmaq üçün təhlükəsizliyi təmin etməyə imkan yaratmır, ancaq minimal yaşayış səviyyəsini təmin etmək üçün ilkin mərhələdə təcili ölçülər götürülməlidir".

"Üçüncüsü, bununla yanaşı ordudakı şəxsi heyətlə izahlı, maarifləndirici və psixoloji işlər aparmaq lazımdır. Dördüncüsü, hərbçilər videoda deyirlər ki, onlara mövqeni tərk etmələri üçün əmr verilib, videoda mövqenin konkret nömrəsi səslənir ki, bu da həmin yerin Qafanda olduğunu təsdiq edir", deyən Abramyan əlavə edib: "Hətta mən söhbətin hansı əmrdən getməsini və hansı məqsəd daşıması barədə verilən suallara da cavab vermək istəmirəm. Beşincisi, videoda qeyd olunur ki, əmrdə hərbçilərin silahsız və maqazinsiz (güllə darağı) növbə çəkmələri tələb olunur".

Beləliklə, buradan belə bir nəticə çıxarmaq olar ki, artıq Ermənistanın ərazisi sayılan Qafanda mövqe tutan erməni hərbçiləri artıq həmin əraziləri də tərk etmək məcburiyyətindədirlər və eyni zamanda, onların sosial vəziyyətlərinin, təchizatlarının da təmin olunmaması posesi demək olar ki, adi hala çevrilib.

***Rövşən RƏSULOV***

# Suriyadakı uşaqların ölümü durmadan artır: Yeni faktlar ortaya çıxdı



Araşdırmalar göstərir ki, Suriyada ölkədaxili münaqişələrin başlandığı zaman 2011-ci ilin mart ayından bu günə qədər 12 min uşaq həyatını itirib və ya yaralanıb. Birləşmiş Millətlərin (BM) statistikasına görə, milyonlarla uşaq uzun müddət davamlı olaraq məktəbə getməyib və təhsil ala bilməyib. BM Uşaqlara Yardım Fondu(UNİCEF) Suriyanın daxilində olan müharibənin başlanmasından sonra ölkədəki mülki şəxslər və uşaq ölümləri ilə bağlı bir hesabat yayımlayıb.

SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, 2011-ci ilin mart ayından etibarən bu günə qədər Suriyadakı müharibə və daxili ziddiyyətlərə görə 500 minə yaxın mülki şəxs həyatını itirib. Xatırladaq ki, bu dövrdə əhalinin 20 milyonunun yarısı yaşadıqları ərazini tərk etmək məcburiyyətində qalıb. 5 milyondan çox insan başqa ölkələrdə miqrant halına düşüb.

UNİCEF-in ölkə üzrə uşaqlarla bağlı statistika göstərir ki, vəziyyət necə gərgindir. Statistik rəqəmlərə görə 2011-ci ildən bu günə qədər ölkədə 12 min uşaq dünyasını dəyişdi ya da yaralandı. 7 yaşdan aşağı 5 min 700 uşaq isə silahlı atışmaların şahidi olub. Ölkədə 1300 təhsil və tibb mərkəzi silahlı atışmalar və hərbi əməliyyatların davam etməsi səbəbi ilə dağıdılıb. Rusiya və İranın dəstəyi ilə Suriya prezidenti Bəşər Əsədə sadiq qüvvələr ölkənin böyük bir hissəsini nəzarət altına keçirib. Müxalifət qrupları ölkənin şimal-qərb hissəsində 3 milyondan çox sığınacaq axtaran şəxslərə çağırışı edib.

***Qönçə Quliyeva***

# Antimilli şuranın xain, məkrli missiyası

**Antimilli şura və onun arxasında duranlar nəinki bu gün, uzun illərdir ki, pozuculuq fəaliyyətlərini nümayiş etdirirlər. Bu dırnaqarası qurum yarandığı vaxtdan anti-Azərbaycan fəaliyyəti ilə seçilir. Antimilli şuranı əlində oyuncağa çevirən Əli Kərimli ilə onun ətrafında olan beş-on nəfərlik qrup hələ də Azərbaycan dövlətçiliyinə qarşı özlərinin düşmən mövqeyini nümayiş etdirməkdə davam edirlər. Onlar daim müxtəlif mövzular ətrafında böhtan və qərəz dolu fikirləri gündəmə gətirməyə çalışırlar.**

Antimilli şura və onun arxasında duranlar nəinki bu gün, uzun illərdir ki, pozuculuq fəaliyyətlərini nümayiş etdirirlər. Bu dırnaqarası qurum yarandığı vaxtdan anti-Azərbaycan fəaliyyəti ilə seçilir. Antimilli şuranı əlində oyuncağa çevirən Əli Kərimli ilə onun ətrafında olan beş-on nəfərlik qrup hələ də Azərbaycan dövlətçiliyinə qarşı özlərinin düşmən mövqeyini nümayiş etdirməkdə davam edirlər. Onlar daim müxtəlif mövzular ətrafında böhtan və qərəz dolu fikirləri gündəmə gətirməyə çalışırlar. Antimilli şura, Əli Kərimli və onun ətrafında olan satqınlar erməni diasporu, onlara bağlı olan ayrı-ayrı fondlar tərəfindən maliyyələşdirilməklə, dövlətçiliyimizə qarşı böhtan atmaq, qərəzli mövqe nümayiş etdirmək, Azərbaycan həqiqətlərinə kölgə salmaq, Ermənistanı daha üstün mövqedə nümayiş etdirmək kimi tapşırıqlar verilib.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə radikalların əsl simasını xalqımıza açıb göstərib. Ağır döyüşlər zamanı susan, müharibədən sonra Azərbaycanın igid əsgər və zabitlərinin canı, şəhidliyi hesabına əldə edilən uğurları, qələbəni aşağılamağa çalışan bu antimilli qüvvələr Ermənistanın məğlubiyyətini həzm edə bilmirlər. Çünki bu qələbə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılıb.

### "Antimilli ünsürlərlə əlbəttə ki, biz heç vaxt bir masa arxasında otura bilmərik, çünki onlar satqınlardır, xaindirlər"

Dövlət başçısı antimilli ünsürlərin satqın, xain olduğunu dəfələrlə bildirib: "Antimilli ünsürlərlə əlbəttə ki, biz heç vaxt bir masa arxasında otura bilmərik, çünki onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Biz əllə heç vaxt bir masa arxasında otura bilmədiyini deyərək onları əlbəttə ki, biz heç vaxt bir masa arxasında otura bilmərik, çünki onlar satqınlardır, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Onların emissarları xarici paytaxtlarda oturublar. Oradan pul alırlar bura göndərirlər, camaatı çaşdırmaq üçün, onlar bizim şanlı Qələbəmizə kölgə salmaq istəyirlər. Onlar Paşinyanı bizə nümunə gətirirdilər, onu təmiz adam adlandırırdılar, onu "demokrat" adlandırırdılar. Deyirdilər ki, kaş ki, Azərbaycanda da belə bir "lider" olaydı. Həmin bu "demokrat" bütün müxalifəti həbs etdirdi. Əgər 27 sentyabrda müharibə başlamasaydı, o, onları heç buraxmazdı. Əsas müxalifət partiyasının liderini müharibədən bir neçə gün əvvəl həbs etdi. Cinayət işləri".

### "İndi niyə demirlər ki, Paşinyan bizə nümunə olmalıdır. Gəlsin desin. Öz zibilini yalasın"

Dövlət başçısı bu gün "demokratiyadan" danışanlar Azərbaycanın qələbəsini həzm edə bilmədikləri üçün indi susduqlarını söyləyib: "İndi özünü orada bir müxalifət "lideri" adlandıran bir adam var, o da keçmişdən qalan naftalindən çıxarıblar onu, onu da indi çağırıblar, ona da ölkədən çıxmağa qadağa qoyublar. Budurmu demokratiya? İndi Qərb buna göz yumur o öz yerində. Qərb artıq bu demokratiya məsələləri ilə bağlı özünü tam ifşa edib. Yəni, artıq heç bir ikinci fikir ola bilməz. Ona göz yumur, o təbiidir. Amma bizim bu dırnaqarası "demokratlar" indi niyə susurlar? İndi niyə demirlər ki, Paşinyan bizə nümunə olmalıdır. Gəlsin desin. Öz zibilini yalasın. Adam qalmayıb Ermənistanda ki, onu lağa qoymasın. Hansısa adlar veriblər indi özləri bilərlər. Bunu bizə nümunə gətirirdilər. Nə üçün? Çünki oradan, mərkəzdən, onların mərkəzindən təlimat almışdılar. Məqsəd nə idi? Məqsəd Azərbaycanı qarışdırmaq, Azərbaycanı çökdürmək, Azərbaycan rəhbərliyini hörmətdən salmaq, çirkin uydurmalar, iftiralar, yalançı məqalələr yazdırmaq - hamısı bizim gözümüzün qabağındadır. Biz bunları unutmamışıq...Bu gün antimilli şurada cəmləşən milli satqınlar da bu məqsədi güdür. Bizim şanlı ordumuzun Qələbəsinə kölgə salmaq istəyənlər



də bu məqsədi güdür. Onlar kimi iyrənc bəlkə də Azərbaycan tarixində insanlar olmayıb. Amma bütün digər siyasi qurumlarla biz əməkdaşlıq edirik və edəcəyik".

### "Antimilli qüvvələrin Vətən müharibəsi zamanı xəyanətkar missiyalarını unutmamışıq"

Politoloq Yusif Bağırzadə antimilli qüvvələrin vətən müharibəsi zamanı xəyanətkar missiyalarını nə xalq, nə dövlətini, xalqını istəyən siyasi qüvvələr unutmayıb: "Biz nə həmin günləri, nə də adını çəkdiyim antimilli qüvvələrin 44 günlük Vətən müharibəsində də öz xəyanətkar missiyalarını reallaşdıraraq ermənilərin dəyirmanına su tökməyini unutmuşuq. Vətən müharibəsinin tarixi qələbəmizlə başa çatdığı, bütün dünyanın Cənubi Qafqazda tamamilə yeni reallıqların meydana gəlməsi faktı ilə razılaşdığı bir zamanda antimilli şura təmsilçiləri bəzi maraqlı dairələrin dəstəyi ilə əldə etdiyi təbliğat imkanlarını səfərbər edərək tarixi qələbəmizə inamı sarsıtmağa, xalqın yeni qürur mənbəyinə şübhə yaratmağa çalışırlar. Gizli maliyyə dəstəyinin qarşılığında xaricdəki havadarlarının sifariş və tapşırıqlarını canla-başla yerinə yetirən bu antimilli dəstə informasiya texnologiyalarının yaratdığı geniş imkanlardan istifadə edərək ölkəmizə qarşı qarayaxma kampaniyasını hər keçən gün daha da genişləndirərək yerli və beynəlxalq ictimai rəyi çaşdırmağa çalışırlar. Onların tutduğu bu yol xəyanət yoludur. Necə ki, bir məmur və ya dövlət qulluqçusu öz vəzifə səlahiyyətlərindən sui-istifadə edərək ona etibar olunmuş işi düzgün icra etməməklə dövlətə xəyanət edir, qeyd etdiyim qüvvələr də bu cür fəaliyyətləri ilə dövlətə, xalqa xəyanət edirlər. Xəyanətə görə isə gec-tez hər kəs cavab verməli olacaq".

***Rəfiqə HÜSEYNOVA***



**RƏFİQƏ**

## Paşinyanın şəxsiyyət vəsiqəsinə "Düşük" adı da yazılacaq

**Hər bir kəsin mənliyini təsdiqləyən sənəd - şəxsiyyət vəsiqəsi var və bu vəsiqənin kimə məxsus olduğu yerdə ata-anasının ona verdiyi adı yazılır. Ancaq Ermənistanın baş naziri Nikol Paşinyanın faşistlərə xidmət edən ata-anasının verdiyi addan başqa o qədər adı var ki...Ən çox da yadımda qalan "Düşük" adı oldu. Bu da səbəbsiz deyil.**

Deyir insanda ağıl, savad yaxşı şeydir, olan yerdə, əsasən də siyasət aləminə baş vuran insan daha realist, daha ağıllı və dərrakəli, həm də ən azı burnundan uzağı görməyi bacarmalıdır. Ancaq bu kriteriyalar olmadıqda, bax, bədbəxtlik də onda başlayır. Xüsusilə də, adını "siyasətçi" qoyan adamlarda. Bu dediyimiz kriteriyalar olmadıqda, həmin adamın sonu məhvə məhkumdur, nəinki özü məhv olur, həm də xalqını dövlətini də özü ilə qəbrə aparır.

Bu, tarixən belə olub. Belə ki, insanlıq və bəşəriyyət əleyhinə yönəlmiş cinayət əməllərinə görə Hitler özünü məhv etdi, xalqına və dövlətinə isə on illiklər sağalması mümkün olmayan yaralar vurdu. Nəticədə, Hitlerin əmrlərinin qulu olanlar üçün Nürnberq məhkəməsi quruldu, sonrakı tarixlərdə törətdikləri soyqırımı aktına görə, Serbiya hakim zümrəsinə daxil olan Miloşeviç və Karaciç Haaqa məhkəməsi qarşısında oturdularaq layiq olduqları cəzanı aldılar.

Ancaq bu gün dünyada hökm sürən qarışıq siyasi mənzərə onu deməyə əsas verir ki, lokal toqquşmaların, aktiv müharibələrində sərhədləri bəlli olan tələbləri var. Bu tələbləri keçdikdə qətliamlar törədənlər beynəlxalq məhkəmə qarşısında oturdula bilər. Bu baxımdan demək olar ki, belə bir hərbi məhkəmə bədbəxt və axmaq millət hesab olunan ermənilərin "baş bilənləri" sırasında yer alan Robert Koçaryan, Serj Sarkisyan, Seyran Ohanyan və hazırda dünya siyasət palitrasında özünə "Düşük"" adı qazandırmış Nikol Paşinyan üçün qurula bilər. Daha doğrusu, artıq Azərbaycanın hüquq-mühafizə orqanları erməni vəhşilərinin azərbaycanlı dinc sakinlərə, şəhər və kəndlərinə qarşı törətdikləri qəddarlıqları, barbarlığı əks etdirən müvafiq hüquqi sənədləri hazırlayaraq, beynəlxalq məhkəmənin qurulması üçün dünya birliyinə müraciət etməyə hazırlaşırlar. O cümlədən 44 günlük savaş dövründə girməyə "siçan deşiyi axtaran" terrorçu "başı" Araik Arutyunyan cəzası isə daha ağır olacaq. Nikol Paşinın cəzası da ağır olacaq. Çünki o, beynəlxalq hüquq normalarını, eləcə də Cenevrə konvensiyasının tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc sakinlərini hədəf seçir. Ancaq Paşinyan və ətrafındakılar anlamalıdırlar ki, tezliklə hər kəs qanun qarşısında öz cəzasının alacaq. Bəzi hərbi ekspertlər iddia edirlər ki, Paşinyanın sərsəm hərəkətləri və onsuz da ağır olan ölkədaxili durumu daha da ağırlaşdırması ermənilər tərəfindən onun fiziki məhvinə qərarın verilməsinə gətirib çıxaracaq. Hətta gözlənilən təhlükədən qaçmaq üçün Paşinyanın ölkədən qaçacağını söyləyirlər. Psixoloqlar isə belə bir iddia irəli sürürlər ki, Nikol Paşinyanın psixoloji problemləri var.

Bəli, axmaq və yarasız insanların aqibəti faciəli sonluqla bitir. Bu, tarixən belə olub və bu gün də aktullığını qoruyub, saxlamaqdadır. Ona görə də, küçədən hakimiyyət pilləsinə yüksələn Paşinyanın axmaq və anormal addımlarının qurbanı olacağı şübhəsizdir. Həm də özü ilə yanaşı erməniləri də, məhvə sürükləyəcəyi şübhəsizdir. Amma bir məsələ də var ki, Paşinyan erməniləri qaragünə, oyuncaq qurum olan Ermənistanı fəlakətlə üz-üzə qoyub, xaricə-filana qaçsa da, "Düşük" adı hər zaman onu qarabaqara izləyəcək. Hətta belə ehtimal edirlər ki, Nikol adı "Düşük"lə əvəzlənsin və bu adı şəxsiyyət vəsiqəsində rəsmiləşsin.

# Sevinc Osmanqızı Əli Kərimlinin "söyüş maşınına" tab gətirəcəkmi?

## AXCP sədrinin trolları ona qarşı təhqir və təhdid yolunu seçiblər

AXCP sədri Əli Kərimli ilə "Osmanqızı tv"nin rəhbəri Sevinc Osmanqızı ilə aralarında olan uçurum daha da dərinləşib. SİA xəbər verir ki, artıq cəbhəçi trolların hücumlarından boğaza yığılmış Sevinc Osmanqızı buna qədər bir neçə dəfə Kərimliyə və onun "söyüş maşınlarına" cavab versə də, onlar buna etinasız yanaşıb və qızışıblar. Artıq necə deyərlər, söyüşün biri "bir qara qəpikdən" hesaba alınmaqdadır.

Qeyd etmək yerinə düşərdi ki, bütün bu hadisələrə qədər AXCP sədri demək olar ki, günaşırı Sevinc Osnanqızının canlı yayımlarına qatılırdı. Yalnız sonradan yaranmış fikir ayrılıqları və xüsusilə Osmanqızının ağalarının ayrıca tapşırıqları əsasında AXCP sədri tv-dən uzaqlaşdırılıb və gündəlik qonaqlar siyahısından çıxarılıb. Bu fakt isə qarşılıqlı ittihamlarla əvəzlənib.

### Bu "xəmir" hər iki tərəfdən hələ "çox su aparacaq"

Bu arada, AXCP sədri Əli Kərimli onu "Osmanqızı tv"dən qovmuş Sevinc Osmanqızını cəbhə trollarının hücumlarına cavab vermək məcburiyyətində qalır və belə görünür ki, bu "xəmir" hər iki tərəfdən hələ "çox su aparacaq". Hətta Osmanqızına qarşı yalnız söyüşlər söyülmür, həm də hədəqorxular səslənir. Belə ki, o cəbhəçi söyüş söyənlərə, təhdid edənlərə müraciət edərək yazıb ki, əgər ortada fərqli düşüncələr varsa, buna görə kimsə-kimsəni linç etməməlidir.

Göründüyü kimi, bir zamanlar aralarından su keçməyən bu iki tərəf şəxsi maraqlarına görə belə demək mümkündürsə, barışmaz düşmənlərə çevrilməkdədirlər. Bu düşmənçilik isə söz yox ki, onların təmsil olunduqları cinahın daha çox ifşa edilməsinə şəraitlər yaradır. Hər halda baş verənlər də göz önündədir.

### "Səni çökdürəcəyik! Mənə hücumlar və mənim cavabım" adlı verilişlə efirə çıxaraq bəyan edib ki...

Xatırladaq ki, məhz düşərgənin "Milli Şura", ya da AXCP üzvü olmayan cinahlarında fəaliyyət göstərən müxalifət təmsilçilərinin də efirə qoşulmalarını həzm edə bilməyən cəbhəçilərin "lideri" Sevinc Osmanqızını sosial şəbəkələrdə təhqir hədəfinə çevirib. Bu fakt isə belə qənaətə gəlməyə zə-




min yaradır ki, hazırkı vaxta qədər ən çox Qənimət Zahidin və Sevinc Osmanqızının canlı yayımlarına qoşularaq özünü zorla gündəmdə saxlamağa cəhd edən Əli Kərimli artıq onlardan birini - "Osmanqızı TV"ni əlindən çıxarıb.

Əli Kərimlinin və ətrafının xəstə təfəkkürə məruz qaldığını iddia edən Sevinc Osmanqızı həm də dolayısı ilə etiraf edib ki, hazırkı zamana qədər göstərdiyi xidmətinə görə, yəni cəbhəçiləri Əli Kərimlinin personasında dəstəklədiyinə görə peşmandır. Bundan sonra isə o, dərhal canlı efirdə ayrıca verilişə çıxıb. Belə ki, "Səni çökdürəcəyik! Mənə hücumlar və mənim cavabım" adlı verilişlə efirə çıxaraq bəyan edib ki, bu gün resursları olmayan qüvvə - yəni AXCP və "Milli Şura" cütlüyü ona "səni çökdürəcəyəm" deyir.

Osmanqızı Əli Kərimlinin əlində olarsa, hətta onu həyatına qəsd edə biləcəyini də istisna etməyib. "Axı sabah siz hakimiyyətdə olanda sizin resurslarınız olacaq, onda siz mənə nə edəcəksiniz?! Siz onda məni fiziki yox edəcəksiniz ki...", deyə "Osmanqızı TV"nin rəhbəri bildirib.

### "Yaxşı ki, bütün bunları gördüm"

Və bu da azmış kimi, onun haqqında cəbhəçi trolların şikayət etdiklərini də deyən Osmanqızı bunun belə davam edə bilməyəcəyini qeyd edib: "İndi məni üzv olduğum şəbəkədə patronlarıma şikayət edirlər. Yaxşı ki, bütün bunları gördüm. Görünür, kiminsə quyruğu qapı arasında qalmalıdır ki, sən onları sınayasan. Deyirlər ki, sənin kanalına gəlməyəcəyik".

Beləliklə, Sevinc Osmanqızı ziyanın yarısından geri dönməyin də xeyir olduğu qənaətinə gəlib və gec də olsa anlayıb ki, bu vaxta qədər nə qədər kirli, xəyanətkar və satqınçılıq girdabında fəaliyyət göstərib.

Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşərdi ki, belə bir hal Əli Kərimliyə qarşı birinci dəfədir ki, baş vermir və bu günə qədər yüzlərlə onu dəstəkləyən insanlar sonradan ondan imtina ediblər. Sevinc Osmanqızı da məhz həmin adamların sırasına daxil olan növbətisidir.

***Rövşən RƏSULOV***

# Qarabağın bərpası işləri necə gedir?

**Moskva-Baku.Ru platformasında Andrey Şlyapnikov müəllifi və aparıcısı olduğu "Diqqət mərkəzində" analitik verilişində regionumuzda gedən proseslərlə bağlı maraqlı məsələlərə toxunub. Verilişi yazı və video formasında oxucularımıza təqdim edirik.**

Artıq 50-dən çox xarici şirkət işğaldan azad edilmiş Azərbaycan ərazilərinin bərpası layihələrində iştirak etmək üçün müraciət göndərib

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

## Böyük qayıdış

Bu həftə 30 azərbaycanlı ailə Qarabağa qayıtdı. Bu yaxınlarda Əhmədbəyli kəndində (Füzuli rayonu) məcburi köçkünlər üçün ən qısa müddətdə dövlət hesabına yeni evlər tikildi. Yeni Azərbaycan Partiyasının 7-ci qurultayında İlham Əliyev prioritetləri müəyyənləşdirdi ki, azad edilmiş torpaqlara ilk qayıdanlar kimlər olmalıdır.

İlham Əliyev: "Bütün dağılmış şəhər və kəndlərimizi bir gündə və ya bir ildə, iki ildə bərpa edə bilməyəcəyik. Buna görə burada, əlbəttə ki, ardıcıllıq olacaqdır. Bu ardıcıllıqla əlaqədar olaraq, ilk növbənin ən çətin vəziyyətdə olan məcburi köçkünlərə verilməli olduğuna inanıram. 300 mindən çox məcburi köçkünə dövlət tərəfindən ev və mənzil verildiyi üçün yaşayış şəraiti yaxşıdır. Lakin köçkünlər hələ də uşaq bağçalarında, yataqxanalarda və yararsız binalarda yaşayırlar. Burada Yeni Azərbaycan Partiyasının fəalları da sosial ədalətə riayət olunmasını təmin etmək üçün öz rollarını oynamalıdırlar".

Ancaq hələ hər yer təhlükəsiz deyil. Uzunmüddətli işğaldan azad edilmiş ərazilərdə minaların təmizlənməsi işləri davam edir. Rusiya və Türkiyə Azərbaycana fəal şəkildə kömək edirlər. Rusiya Müdafiə Nazirliyi bildirdi ki, Dağlıq Qarabağ ərazisində Humanitar Mərkəzinin minaaxtaran-mühəndis qrupları keçən ilin 23 noyabrından bəri 1600 hektardan çox ərazini 25 mindən çox partlayıcı sursatlardan təmizləyiblər- 508 km yol, 1577 ev, 30 sosial əhəmiyyətli obyekt, müxtəlif binalar da daxil olmaqla. Və artıq ilk müsbət nəticələr var. Məsələn, Ağdam rayonunun kəndlərində yaz əkinlərinə fəal şəkildə hazırlaşırlar. Artıq orada 2 min hektardan çox ərazi təmizləndi və taxıl bitkiləri əkildi. Gələcəkdə bölgə özünü ərzaq məhsulları ilə təmin edə biləcəkdir. Azərbaycan Prezidenti azad edilmiş ərazilərə həyatı qaytarmaq üçün konkret vəzifələr qoyur. Bura, ağıllı şəhər və kəndləri ilə nümunəvi bir bölgə olacaqdır.

İlham Əliyev: "Hazırda əsas məqsədimiz azad edilmiş əraziləri bərpa etməkdir. 10 min kv kmdən çox ərazini bərpa etmək lazımdır. Bu istiqamətdə işlər artıq başlayıb: beynəlxalq hava limanının inşasına başlanılıb, magistral və dəmir yolu xətləri çəkilir. Bu ilin sonuna qədər bütün Qarabağ bölgəsini 100% elektrik enerjisi ilə təmin etmək niyyətindəyik. Bundan əlavə bir çox başqa planlarımız var".

YAP-ın qurultayında İlham Əliyev Azərbaycanın uğur hekayəsindən, dövlətin hədəflərinə uğurla çatmağı necə təmin etdiyindən danışdı.

İlham Əliyev: "Bütün işləri ardıcıl olaraq həyata keçiririk və son 17 illik tariximizə nəzər yetirsəniz görərsiniz ki, hədəflər qoyulub, düzgün müəyyənləşdirilib, bu hədəflərə çatdıq və sonra yeni hədəflər qoyduq. Beləliklə, həm siyasi, həm iqtisadi sahədə davamlı inkişafı təmin etdik, Azərbaycanı beynəlxalq aləmdə böyük nüfuza və hörmətə sahib bir ölkəyə çevirdik və əsas vəzifəni - ərazi bütövlüyünü bərpa etdik".

Hazırda infrastruktur aktiv şəkildə yenidən qurulur. "SOCAR Petroleum" Qarabağda modul tipli yanacaqdoldurma məntəqələri quraşdırmağı planlaşdırır. Bunlar nəqliyyat vasitələrinə sürətlə yanacaq doldurma imkanı verən mobil yerüstü yanacaqdoldurma məntəqələridir.



Artıq 50-dən çox xarici şirkət işğaldan azad edilmiş Azərbaycan ərazilərinin bərpası layihələrində iştirak etmək üçün müraciət göndərib. Siyasi səviyyədə də işlər görülür. Rusiya sülhməramlı korpusu Rusiya, Ermənistan və Azərbaycan arasındakı sülh razılaşmalarına əməl olunmasını izləyirlər. Bu həftə Bakı daha bir xoşməramlı hərəkət etdi və muzdlu kimi Ermənistan uğrunda vuruşan və 2020-ci ilin noyabrında əsir götürülən erməni əsilli Livan vətəndaşı Maral Najaryanı geri qaytardı.

## Ermənisayağı stolüstü tennis davam edir

Bu həftə Ermənistanın baş naziri Nikol Paşinyan Baş Qərargah rəisi Onik Qasparyanın istefasına nail oldu və onun yerinə general-leytenant Artak Davtyanı təklif etdi. Lakin Ermənistan prezidenti Armen Sarkisyan baş nazir Paşinyanın vəsatətini 2 dəfə geri qaytardı. Media bu sxemi "ermənisayağı stolüstü tennis" adlandırdı. Qanuna görə, prezident baş nazirin təklifini 2 dəfə rədd edərsə, o zaman avtomatik olaraq qüvvəyə minir. Artak Davtyan artıq 2018-2020-ci illərdə Baş Qərargah rəisi vəzifəsində çalışıb, ancaq karantin zamanı oğlunun toyunu təşkil etdiyi üçün işdən qovulub. Müxalifət isə qəzəblidir və bir daha hərbi çevrilişlə hədələyir. Ancaq görünür ki, ordunun indi bu çevrilişə ehtiyacı yoxdur. Keçən həftə Baş nazir Nikol Paşinyan Ermənistan Silahlı Qüvvələrinin komanda heyəti ilə görüş keçirdi.

Maksim Şevçenko: "Bu gün Qarabağ bir çox erməni üçün anlaşılmaz bir mövzuya çevrilib. Görünür, bir tərəfdən, milli hissə xitab etdiyi üçün vacibdir, digər tərəfdən onunla nə etmək lazım olduğu tamamilə anlaşılmazdır. Və bu vəziyyətlə əlaqəli olaraq, müqayisənin digər tərəfində, erməni əhalisi tərəfindən Azərbaycanla və Türkiyə ilə sərhədlərin açılmasının ticarətin canlanmasına səbəb olacağı, Ermənistanda yaşayan insanlar normal yaşamağa başlayacağı faktoru dayanır. Və bəlkə də yalnız normal deyil, hətta daha zəngin".

Moskva da daim siqnallar verir ki, indi "qayığı silkələməyin" vaxtı deyil.

Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko: "Biz bunu Ermənistanın daxili işi kimi qiymətləndiririk və orada gedən proseslərə qarışmırıq, tərəf tutmuruq. Vəziyyətin ən qısa müddətdə normallaşmasını istəyirik, bunun Dağlıq Qarabağ ətrafındakı məskunlaşma da daxil olmaqla hər kəsə faydası olacaq".

Moskva və Bakı üçün Paşinyan indi qənaətbəxş bir fiqurdur. Əldə edilmiş sülh razılaşmalarını yerinə yetirməkdə qərarlıdır. Ancaq erkən seçkilər keçirilərsə, Ermənistanda lider dəyişə bilər. Bunu rəy sorğuları göstərir. Ermənistan vətəndaşları "Gələn bazar günü parlament seçkiləri keçirilsə, hansı siyasi partiyaya səs verərdiniz" sualını belə cavablandırıb:

- Mənim addımım - 33%
- Çiçəklənən Ermənistan - 3%
- Robert Koçaryan - 2%
- RPA - 1%
- ARFD - 1%
- 17 partiya - 1%
- Sasna Srer - 1%
- Maariflənmiş Ermənistan - 1%
- Heç kim - 42%
- Bilmirəm - 12%

Ən maraqlısı budur ki, qalib cavab "Heç kim" cavabı oldu-42%. Bu, seçicilərin siyasi arenada yeni bir fiqurun ortaya çıxmasını gözlədiyini, ancaq sülh razılaşmalarının ziyanına olmadığını açıq şəkildə göstərir.

Politoloq, PolitRUS portalının rəhbəri Vitali Arkov: "Ermənistanın baş naziri roluna müəyyən bir koalisiya namizədi təyin olunduqda, ölkədəki vəziyyət sabitləşə bilər. Konkret qərar və konkret namizəd olmayana qədər Paşinyan hakimiyyətdə qalacaq. Putin Nikol Paşinyanla əlaqə saxlayırsa, deməli, Ermənistanın baş naziri üçün hər şey o qədər də pis deyil. Onunla hesablaşırlarsa, deməli o, suyun üzündə qalır. Ancaq gectez öz postundan ayrılmalı olacaq".

Paşinyan iqtidarda olduğu müddətdə beynəlxalq təşkilatlarla əlaqələrini bərpa etməlidir. Keçən həftə BMT Uşaq Fondunun (UNICEF) nümayəndəsi Marina Klark-Hattinq Ermənistanı tərk etdi. Erməni KİV-ləri ölkənin rəsmilərinin onu Azərbaycanın və Böyük Britaniyanın xeyrinə casusluq etməkdə şübhəli olduğunu bildirdi. Marina 2020-ci ilin iyulundan bəri Ermənistanda UNICEF-i təmsil edir. Bu, əlbəttə ki, Ermənistan üçün ciddi bir imic qalmaqalıdır. Bəlkə də bunu sakit həll etməyə qərar verdilər. Cinayət işi açılmadı və UNICEF nümayəndəsinin ölkədən rahat şəkildə çıxmasına icazə verildi.

## Əməkdaşlıq istiqamətində kurs

Bu həftə Azərbaycanın Rusiyadan 300 min doza "Sputnik-V" peyvəndi alacağı məlum oldu. Bu sərəncamı Azərbaycanın Baş naziri Əli Əsədov imzaladı. Çatdırılma 180 gün ərzində həyata keçiriləcək. Bu, yalnız Rusiya-Azərbaycan münasibətləri üçün deyil, həm də Azərbaycan əhalisi üçün yaxşı xəbərdir. Bəzi Avropa ölkələri, potensial yan təsirləri səbəbiylə "AstraZeneca" peyvəndinin istifadəsini müvəqqəti dayandırdı. Azərbaycan Çindən də peyvənd alır. Bir neçə tədarükçü hesabına Azərbaycan hökuməti əhalinin fasiləsiz peyvəndlənməsinə davam edir.

Gələcəkdə ölkələr Zəngəzur ticarət dəhlizinin yaradılmasına ümid edirlər. Bu dəhliz Ermənistan, Azərbaycan və Türkiyəni birləşdirəcək və Ermənistan Rusiyaya birbaşa çıxış əldə edəcəkdir.

Maksim Şevçenko: "Qarabağ nizamlanmasına dair üçtərəfli bəyanata əməl olunarsa, gələcəkdə vəziyyət müsbət olarsa, hər kəs Ermənistan-Türkiyə sərhədinin açılmasını, Zəngəzur nəqliyyat dəhlizinin açılmasını görəcəkdir. Ermənistandan keçən bu dəhliz on, bəlkə yüz minlərlə insana iş verəcək". Müsbət haldır ki, Ermənistanda bunu getdikcə daha çox adam başa düşür.

***Tərcümə - Elçin Bayramlı***

ANALİZ

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**16 mart**


**QARABAĞ AZƏRBAYCANDIR!**

## Futbolun yeni kralı: Ronaldo Peleni keçdi!

“Yuventus”un hücumçusu Kriştiano Ronaldo Peleni keçərək futbol tarixinin ən yaxşı bombardiri olduğunu elan edib. Belə ki, bu barədə portuqaliyalı hücumçu özünün İnstaqram səhifəsində məlumat yayıb. Ronaldo yazıb: “757 qol vurmuş Peleni keçərək futbol tarixinin ən yaxşı bombardiri olmağımla bağlı son həftələr çoxlu xəbər və statistika yayılıb. Bu etiraflara görə təşəkkür etməklə həmin rekordu indiyədək qəbul etməməyimin səbəbini açıqlamaq məqamının yetişdiyini düşünürəm.



Edson Arantes do Nasimentoya əbədi və qeyd-şərtsiz heyranlığım, 20-ci əsrin ortalalarının futboluna olan hörmətim məni Pelenin 767 qol vurduğuna inandırdı. O, San-Paulu ştatının yığma komandasında 9, həmçinin hərbçilərin komandasında bir rəsmi qol vurub. O vaxtdan dünya da, futbol da dəyişib. Amma bu o demək deyil ki, biz öz maraqlarımız naminə tarixi silməliyik. Bu gün mən karyeramda rəsmən 770 qol həddinə çatmaqla ilk növbədə Peleyə müraciət edirəm. Dünyada elə bir oyunçu yoxdur ki, Pelenin uğurları, qolları və oyunları ilə bağlı hekayələrlə böyüməsin. Mən də istisna deyiləm. Ona görə də mən sevinc və qürurla Pelenin rekordunu qıraraq dünyada bombardirlər siyahısında birinci yerə yüksəldiyimi qəbul edir və qeyd edirəm ki, Madeyrada böyüyəndə bunu heç arzulaya bilməzdim.

Hamıya mənimlə bu yolda olduğuna görə təşəkkür edirəm. Klubdakı yoldaşlarıma, rəqiblərimə, bu gözəl oyunun bütün dünyadakı fanatlarına, ilk növbədə isə ailəmə və dostlarıma təşəkkür edirəm. İnanın ki, mən sizlər olmadan bunu bacara bilməzdim. İndi isə mən gələcək oyunlar və sınaqlara, növbəti rekord və titullara köklənirəm. İnanın ki, bu tarixin bitməsinə hələ çox var. Gələcək irəlidədir. “Yuventus” və Portuqaliyanın isə hələ çox işi var. Bu səyahətdə mənə qoşulun. İrəli!”. Qeyd edək ki, Pele özü də onun rekordunu keçməsi münasibəti ilə Ronaldonu təbrik edib.

## Keçmiş məhkumdan “Makarov” tapançası tapıldı



Nərimanov Rayon Polis İdarəsinin 18-ci polis şöbəsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Göyçay rayon sakini, əvvəllər məhkum olunmuş Ə.Nəcəfovda silah-sursat aşkarlanıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ondan nömrəsi silinən “Makarov” markalı tapança, 3 patron və 1 patron darağı götürülüb. Faktla bağlı təhqiqat aparılır.

## “Mercedes” yolu keçən piyadanı vurub öldürdü



Bakıda piyadanın ölümü ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Yasamal rayonu ərazisində yolu keçən Beyləqan rayon sakini P.Səfərov Füzuli rayon sakini X.Niftəliyevin idarə etdiyi “Mercedes” markalı avtomobillə vurulub. Nəticədə piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı Yasamal Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Sumqayıtda mənzillərdən oğurluq edənlər saxlanılıb



Sumqayıtda mənzillərdən silsilə oğurluq edən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müxtəlif vaxtlarda şəhər ərazisində 12 mənzildən elektrik naqili, təmir-tikinti alətləri, inşaat materialları və məişət əşyaları, habelə “MilliÖn” ödəmə terminalından 2500 manat məbləğində pul oğurlamaqda şübhəli bilinən Corat qəsəbə sakini, əvvəllər məhkum olunmuş B.Mirzəyev Sumqayıt Şəhər Polis İdarəsi 1-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı şəhər polis idarəsində araşdırma aparılır.

## Həkim-terapevt: Qida əlavələrinin həddindən çox qəbulu orqanizmdə geridönməz proseslər əmələ gətirir




Yeni növ koronavirusla (COVID-19) mübarizədə ən əsas məsələlərdən biri də immun sisteminin möhkəmləndirilməsidir. Bu baxımdan qida rasionuna vitamin və minerallarla zəngin qidaların daxil edilməsi vacibdir. Son zamanlar bioloji fəallığa malik qida əlavələrindən də çox istifadə olunur. Mütəxəssislər isə bildirirlər ki, bəzən kapsul, həb, toz, sirop və digər formada hazırlanmış həmin məhsulları dərman preparatları ilə eyniləşdirirlər.

Bakıdakı 6 nömrəli poliklinikanın terapiya şöbəsinin müdiri Gülsarə Sadıqova AZƏRTAC-a deyib: “Qida əlavələri dərman vasitəsi sayılmır, lakin onların tərkibi qida məhsullarının tərkibinə yaxın olması və orqanizmin zəruri tələbatlarını ödəməsinə baxmayaraq, heç bir halda normal qidalanmanı əvəz etmir. Qida əlavələri müəyyən bir normada qəbul edilməlidir, çünki onların səmərəsi yalnız müəyyən edilmiş normada özünü göstərir”.

Qida əlavələri reseptsiz satılır. Ona görə də istehlakçılar diqqətli olmalıdırlar. Həmin əlavələr üzərindəki təlimatlarla tanış olduqdan sonra istifadə edilməlidir. Həkimlərin dediyinə görə, insanlar bəzən immun sistemini və ya dolayısı ilə orqanizmin xəstəliklərə qarşı müqavimətini artırdığını düşünərək zərurət olmadığı təqdirdə qida əlavələri qəbul edirlər. Həmin məhsuldan düzgün istifadə edilmədikdə orqanizmdə ciddi fəsadlar yarada bilər: “Onun həddindən çox qəbul edilməsi orqanizmdə geridönməz proseslər əmələ gətirir. Həmçinin qaraciyər, böyrək, mədə-bağırsaq xəstəlikləri və zamanla bağırsaq xəstəliyindən əziyyət çəkməyə səbəb olur”,- deyə həkim-terapevt bildirib.

Orqanizmin bütün qidalandırıcı komponentlərlə təmin edilməsində ən ideal vasitə düzgün qidalanmaqdır. Unutmaq lazım deyil ki, qida əlavələri heç də həmişə təhlükəsiz və sağlam qidalanmanın tələblərinə cavab vermir. Ona görə də mütəxəssislər mümkün qədər vitamin, və digər komponentləri gündəlik qidalardan almağı tövsiyə edirlər.

## “Yuventus” ŞOKDA: Buffon zədələnib

“Yuventus”un qapıçısı Canluici Buffon zədələnib. Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, 43 yaşlı qolkiperin belində problem yaranıb. Onun qarşıdakı oyunlarda komandaya kömək edə bilməyəcəyi vurğulanıb. Buffonun nə vaxt sıraya dönəcəyi isə bəlli deyil. Qeyd edək ki, Buffon bu mövsüm A Seriyasında 5 oyuna çıxıb.




*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**